ŞƏHİD
HƏSƏNAĞA
ABDULLAZADƏ



"KƏLBƏCƏRİN AZAD OLUNMASINA GÖRƏ" MEDALI



"VƏTƏN UĞRUNDA" MEDALI



"RƏŞADƏT" ORDENİ

# BU DÜNYANIN HƏSƏNAĞASI



63.3(5Az)622.8

# BU DÜNYANIN HƏSƏNAĞASI

MƏCBURİ NÜSXƏ
№

F. Köçərli adına
Respublika Uşaq
KİTABXANASI
İNV. № 121350

Bakı – 2022

# MÜNDƏRİCAT

**ABDULLAZADƏ HƏSƏNAĞANIN BİOQRAFİYASI** ...................... 5

Abdullayeva Səmilə (şəhid Həsənağanın anası) .......... 8
Abdullayev Şakir (şəhid Həsənağanın atası) .......... 24
Abdullazadə Mirvari (şəhid Həsənağanın həyat yoldaşı) .......... 26
Kazımova Mədinə (şəhid Həsənağanın bibisi qızı) .......... 31
Mirzəzadə Muradxan (Həsənağanın xalası oğlu) .......... 36
Mirzəzadə İsmayıl (Həsənağanın dayısı oğlu) .......... 38
Ağayev Söhbət
(Lənkəran şəhər 9 saylı tam orta məktəbin direktoru) .......... 42
Məmmədova Elizadə (direktor müavini) .......... 45
Məmmədova Məsumə (Həsənağanın ibtidai sinif müəllimi) .......... 47
Kərimova Pərvanə
(Həsənağanın sinif rəhbəri və riyaziyyat müəlliməsi) .......... 50
Əhmədova Günay (Həsənağanın müəlliməsi) .......... 51
Məmmədova Əsmər (həyat bilgisi müəlliməsi) .......... 52
Cəfərov İqbal (sinif yoldaşı) .......... 53
Əlizadə Ülvi (sinif yoldaşı) .......... 54
Məmizadə Könül (sinif yoldaşı) .......... 58
İsgəndərli Cəmil (şəhid Həsənağanın sinif yoldaşı) .......... 59
Məmmədov Tural (sinif yoldaşı) .......... 60
Baş leytenant Əliyev Müşfiq (kursant yoldaşı) .......... 61
Baş leytenant Rüstəmov Faiq (kursant yoldaşı) .......... 63
Baş leytenant Turxan Əmirov (kursant yoldaşı) .......... 65
Baş leytenant Mustafayev Rauf (kursant yoldaşı) .......... 67
Kapitan Rüstəmov Adəm (kursant yoldaşı) .......... 68
Baş leytenant Səfərov Füzuli (hərbidən yoldaşı) .......... 70
Baş leytenant Paşayev Fuad (hərbidən yoldaşı) .......... 71
Quliyev İnqilab (hərbidəki yoldaşı) .......... 72

Əsgər Şərifov Kənan (hərbidən yoldaşı)...74
Kərimov Fərid (hərbidən yoldaşı)...76
Abdullayev Səməd (hərbidən yoldaşı)...79
Kapitan Nəsirov Cavidan (hərbidən yoldaşı)...80
Orucov Oruc (Həsənağanın yanında olan döyüş yoldaşı)...82
Hacıyev Ziyad (gizir)...84
Rüstəmzadə Xanlar
(3-cü tağım 3-cü manqa komandiri, kiçik çavuş)...85
Nəbiyev (hərbidən yoldaşı)...87
Qulubəyli Məhəmməd (hərbidən yoldaşı)...88
Əsgər Fərzəliyev Sənan (hərbidən yoldaşı)...89
Kapitan Hüseynov Şəhriyar (hərbidən yoldaşı)...91
Leytenant İslamzadə Elməddin (hərbidən yoldaşı)...92
Qurbanov Heydər (hərbidən yoldaşı)...93
Əsgər Quliyev Etibar (hərbidən yoldaşı)...95
Zahidoğlu Teymur ("Bu dünyanın Həsənağası" sənədli filminin ssenari müəllifi və rejissoru)...96
Lalə Hüseynova (jurnalist)...100

**ABDULLAZADƏ HƏSƏNAĞANIN ƏZİZ XATİRƏSİNƏ HƏSR OLUNMUŞ ŞEİRLƏR...103**
Həsənağa imzası var...104
Şəhidimə yaxşı bax...106
Cənnətə aparan izlər...107
Şəhid Həsənağa...109
ABDULLAZADƏ

**HƏSƏNAĞANIN XATİRƏ ŞƏKİLLƏRİ...110**



## ABDULLAZADƏ HƏSƏNAĞANIN BİOQRAFİYASI

Abdullazadə Həsənağa Şakir oğlu 1993-cü il mart ayının 9-da Lənkəran şəhərində anadan oldu. 1999-cu ildə Rövşən Bədəlov adına 9 saylı tam orta məktəbin 1-ci sinfinə daxil olmuş Həsənağa 2007-ci ildə həmin orta məktəbin 8-ci sinfini yüksək qiymətlərlə bitirir. Tək övlad olmasına baxmayaraq, həmin il öz istəyi ilə Cəmşid Naxçıvanski adına hərbi liseyin 1-ci kursuna daxil olur. Axı adı qələbə tarixinə yazılacaq Vətən oğlu təkcə ailəsinin deyil, Ana torpağın da övladı olduğunu dərk edirdi. 12.09.2007-ci il tarixində C.Naxçıvanski adına hərbi liseyin şərəf and içmə mərasimi keçirilir. 26.08.2007-ci il tarixindən məzun gününə qədər Həsənağa tağım komandirinin müavini kimi fəaliyyət göstərir. 2010-cu ildə həmin məktəbi fərqlənmə ilə bitirərək həmin ilin avqust ayında Heydər Əliyev adına Azərbaycan Ali Hərbi məktəbinə daxil olur. 2013-cü ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrin 95 illiyi (1918-2013) "Yubiley medalı" ilə təltif edilir. Lakin cəsur Vətən övladının uğurları bununla bitmir. 2014-cü ilin iyul ayında həmin məktəbi bitirən Həsənağa, "leytenant" rütbəsi alır. 2014-cü ildə Silahlı Qüvvələrin Təlim-Tədris mərkəzinin zabit təkmilləşdirmə kursuna daxil olur. Hərbi Məktəbdə 2-ci kursant taborunun 5-ci bölüyünün 23-cü tağımında təhsil alır. Təhsil müddətində 5-ci kursant bölüyünün baş çavuşu olur. 2014-cü ildə Heydər Əliyev adına AAHM-rəisi General-Leytenant Heydər Piriyevin tapşırığına əsasən Abdullazadə Həsənağa Şakir oğlu kursantlarla iş təşkilatçılığına rəhbərlik edir. 2015-ci ildə kursu uğurla başa vursa da, vətən qarşısında

olan vəzifəsini yarım qoymamaq üçün öz arzusu ilə xidmətini davam etdirmək üçün Gədəbəyin ən ucqar zonası olan Qoca Dağa xidmətə yollanır. "N" saylı hərbi hissənin Gədəbəy rayonunda motoatıcı tağım komandiri vəzifəsinə göndərilən Həsənağa 2015-2016-cı ildə Gədəbəy rayonu "N" saylı hərbi hissənin ön xəttində tağım komandiri vəzifəsinə təyin olunur. Həsənağaya Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin əmri ilə 2017-ci ildə "Baş leytenant" rütbəsi verilir. 2018-ci ildə oktyabr ayında Göygöl rayonu "N" saylı hərbi hissəyə bölük komandiri vəzifəsinə göndərilir. Baş leytenant olmasına baxmayaraq, Vətən müharibəsindən bir neçə ay əvvəl Müdafiə Nazirliyinin əmri ilə Göygöl rayonu "N" saylı hərbi hissəsində taborun "Qərargah rəisi" vəzifəsinə təyin olunur.

Vətən sevdalısı bir yay günündə qəlb sevdasına da qovuşur. Həsənağa 2019-cu ildə avqust ayının 17-də ailə həyatı qurur. Lakin onların bu sevdadan vətən əmanəti olacaq kiçik yadigarları qalmır.

Vətən müharibəsi zamanı Murovdağın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edən Həsənağa daha sonra isə Ağdərə və Kəlbəcər döyüşlərində ən öndə döyüşən zabitlərdən olur. Murov yüksəkliyi uğrunda gedən döyüşlərdə ayağından güllə yarası alsa da, döyüşü tərk etmir, hospitala göndərsələr də, ayağını sarıyıb, öz taboru ilə birlikdə Kəlbəcər uğrunda gedən döyüşlərə yollanır. Heç bir yara bu igidin cəsarətini sındıra bilmir. O, Kəlbəcər uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olur. Döyüş yoldaşları deyir ki, Həsənağa deyirdi: "Biz 3 nəfər qalsaq belə, bu post alınmalıdır" və belə də oldu. Amma təəssüf ki, o qələbə



sevincini yaşaya bilmədi. Torpaq həsrətini bitirən Vətən oğlu bu dünyada doğma yurd vüsalına qovuşa bilmədi. Həsənağa 2021-ci il oktyabrın 2-də Kəlbəcər rayonunda qəhrəmancasına şəhid oldu. Həsənağanın nəşi 112 gün düşmən əlində qaldı. Yanvarın 14-ü, 112 gündən sonra Həsənağanın nəşi ailəsinə təhvil verildi və II Fəxri Xiyabanda dəfn edildi. Abdullazadə Həsənağanın şəhadətindən sonra Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli sərəncamına əsasən "Vətən uğrunda" medalı ilə, Azərbaycanın Kəlbəcər rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaət nümayiş etdirdiyinə görə "Kəlbəcərin azad olunmasına görə" medalı və "Rəşadət" ordeni ilə təltif edildi.

Qələbəsi ilə tarix yazan igid Vətən oğlunun adını daim yaşatmaq üçün isə Lənkəran şəhərində Hacılar küçəsinin adı dəyişdirilərək "Şəhid Həsənağa Abdullazadə" adı verildi və orada onun abidə-bulaq kompleksi inşa edildi və Şəhid Həsənağa Abdullazadə haqqında "Bu dünyanın Həsənağası" adlı sənədli film çəkildi. Filmin ssenari müəllifi və quruluşçu rejissoru Teymur Zahidoğludur.

## ABDULLAYEVA SƏMİLƏ

(şəhid Həsənağanın anası)

Sərin bir yaz səhəri 1993-cü il martın 9-u saat 06:30-da dünyaya bir körpə gəldi. O gün elə bil dünya hər tərəfdən aydınlandı, hər kəs sevinirdi. Abdullayev nəslinə yeni bir günəş doğdu, çünki bu uşaq neçə illərdən sonra Allahın bəxş etdiyi ən gözəl pay idi. Bu sarışın uşağın adı Həsənağa idi. Onun adını Biləsuvar rayonunda yaşayan ağır seyid Ağamirtahir ağa qoydu. Onun gəlişi hər birimizə böyük sevinc bəxş etdi. Anadan olan kimi seçilmiş olan bu uşaq normal körpə kimi qidalanmadı. Üç ay ana südü ilə qidalandı. Sonra isə mən onu yatmış halda yedizdirirdim. Mənim körpə balam hər ay xəstələnirdi. Hətta 8 aylığında ölümlə üz-üzə belə qaldı. Lənkəran uşaq xəstəxanasında bütün həkimlər onun xəstəliyinin nə olduğunu anlamadılar. Sonra Allahın izni ilə bu xəstəlikdən xilas oldu. Çox çətinliklə də olsa 1 il 2 aylığında artıq Həsənağa ilk addımlarını artmağa başladı. Bu, həyatın ən gözəl, ən sevinc dolu anı idi. Yıxılıb, qalxa-qalxa Həsənağa yeriməyi öyrəndi. Həsənağa qeyri-adi uşaq idi, hamının qəlbinə yol açırdı, hamı onu çox istəyirdi. Həsənağa güclü yaddaşa malik, tez öyrənməyə meyilli uşaq idi. Buna görə də mən Həsənağa beş yaşına çatanda ona birinci sinif proqramını öyrətməyə başladım. Bu işdə mənə qonşu Sədaqət müəllimə kömək edirdi.

1999-cu il sentyabr ayında Həsənağa birinci sinifə başladı. O an həyatımın ən gözəl anlarından biri idi. Çünki mənim oğlum həyata birinci addımını atdı. Sinif müəllimi Məsmə müəllim idi. Həsənağanı ilk sırada əyləşdirdi. Həsənağanın dolub-boşalan gözləri, qızaran yanaqları



bugünki kimi yadımdadır. Məndən heç vaxt ayrı qalmayan uşaq ağlamaq istəsə də, ağlamadı. Mən onun ağlayacağını zənn edib dəhlizdə gözlədim, amma Həsənağa ağlamadı. O zaman anlaya bilmədiyim bir şeyi indi daha yaxşı anlayıram. Həsənağa həqiqətən seçilmiş bir idi. İbtidai sinifi əla qiymətlərlə oxudu. 5-ci sinifdə də öz bacarıqları ilə fərqlənirdi. Həsənağa sinif nümayəndəsi idi. 6-cı sinifdə oxuyanda biz 7 nömrəli məktəbin yanındakı evə köçdük. Bu ev Şəhidlər Xiyabanında yerləşən balaca rus evlərindən biri idi. Biz burada yaşamağa başladıq. Həsənağa o evdən 9 nömrəli məktəbə gedib gəlirdi. Biz bu evdə çox çətinliklərlə rastlaşdıq. Həyatın çətinlikləri Həsənağanın balaca çiyinlərinə yerləşmirdi. Atası işləmək məqsədi ilə Moskva şəhərinə yollandı. Demək olar ki, həmin vaxtdan bizim çətinliyimiz başladı. Mən, Həsənağa, bir də bibisi qızı Mədinə həmin evdə yaşadıq. Atasının bizə gec-gec pul göndərməsi nəticəsində biz çox əziyyət çəkirdik. Həsənağanın iki babasından başqa heç kim köməklik etmirdi. Biz belə bir qərara gəldik ki, şirniyyat bişirib sataraq çörək pulu əldə edək. Biz şirniyyatı hazırlayırdıq, Həsənağa məktəbdən gələndən sonra gedib satırdı. Beləliklə, həyatın çətin yükü Həsənağanın balaca çiyinlərinə yükləndi. 6-cı sinifdə oxuyan bu uşaq məktbdən gəldikdən sonra şirniyyatı aparıb dükanlara paylayır, səhəri gün gedib pullarını alırdı.

Beləliklə, biz bir müddət belə dolandıq. Sonra Həsənağanın atası Moskvadan qayıtdı və işləmək üçün Bakı şəhəri Nardaranda yerləşən Ləhiş bağlarına gəldi. Bundan sonra bizim həyatımız normallaşmağa başladı. Həsənağa artıq dərslərinə daha çox vaxt ayırır və repetitor yanına gedirdi.

Həsənağa 6-cı sinifdə sinif nümayəndəsi seçildi. Sinfin bütün ictimai işlərində iştirak edirdi. Onun özünəməxsus bütün gözəl keyfiyyətləri orta məktəbdə üzə çıxdı. Həsənağa hazırcavablığı, səlis danışığı ilə hamının diqqətini özünə cəlb edirdi. Hətta hələ də məktəbdə onun adına açılan uşaqlıq guşəsi var. Həsənağanın şəkli şərəf lövhəsində birinci yerdə dayanırdı. Ata babası bir gün məktəbə getmişdi. O, evə gələndə gördüm ki, ağlayır. Mənə dedi ki, mən doqquz uşaq böyütdüm, amma heç birinin şəklini şərəf lövhəsində görmədim. Bu gün isə Həsənağanın şəklini orada görəndə, müəllimlər ondan danışanda qəlbim qürurla doldu, sevincimdən gözlərim yaşardı.

Bir gün də biz bibisigilə Biləsuvar şəhərinə getdik. Hamı oynuyur, gülür, əylənir, Həsənağa isə bizim yanımızda əyləşmişdi. Bu zaman bibisi Həsənağaya "ananı çox istəyirsən, ya atanı?" deyə sual verdi. O isə cavabında gülərək "atam mənim üçün qənddir, anam isə şəkər tozudur" dedi. Hamı təəccüblə Həsənağanın üzünə baxdı. Bibisi bunu bizə izah et deyəndə o dedi: "Şirin çayı qəndlə edəndə üzəri ağ olur, amma şəkər tozu ilə edəndə tez həll olur". Balam hər şeydə bir səlis cavabı ilə hər kəsin sevgisini qazanmışdı.

Həsənağa 8-ci sinifə çatanda gözləmədiyim halda mənə hərbi məktəbdə oxumaq istədiyini dedi. Bu mənə çox pis təsir etdi. Hərbi məktəb oxumağın nə demək olduğunu bilirdim. Bunu eşidəndə sanki yerimdə donub qaldım, cavab verməyə çətinlik çəkdim. Atasına zəng edib, bu xəbəri ona dedim. O isə "Necə istəyirsiniz, elə də olsun. Həsənağanın təhsili ilə sən maraqlanırsan" dedi. Mən razılıq vermirdim, çünki düşünürdüm ki, bu həyatda tək varlığım olan, can



parçam Həsənağam hərbiyə getsə, mən onun arxasınca baxacağam. Amma bir gün onun idman müəllimi Sakit müəllim yanıma gəlib, öz fikirlərini mənimlə bölüşdü və dedi: "Xanım, siz Həsənağanı hərbi məktəbdə təhsil almasına icazə vermirsiniz, amma vaxt keçdikcə vicdan əzabı çəkəcəksiniz ki, onu bu yoldan döndərdim. Siz belə etməyin". Bu sözləri düşünərək mən Həsənağanın hərbi məktəbdə təhsil almasına icazə verdim. Amma təsəllimi onda tapırdım ki, Həsənağa mənə bağlı olduğu üçün o, hərbi məktəbdə qalmayacaq və bir gün evə geri dönəcək. Həsənağa hərbi məktəbə getmək üçün hazırlaşmağa başladı. Hazırlaşdığı müddətdə mən də ona kömək edirdim. Sonra Bakıya imtahan verməyə getdi. Öncə həkim müayinəsindən keçdi. Daha sonra isə uğurla imtahanı verdi. Həsənağa imtahanın nəticələrin biləndə çox sevindi. Ancaq mən o dərəcədə sevinə bilmirdim. Hətta o fikirlə yatanda yuxumda da bir gün mənə dedilər ki, Həsənağa hərbi məktəbə daxil olub, orada təhsil alacaq. Onun gedişi bugünki kimi yadımdadır. Elə məğrur yerişi ilə gedirdi ki, sanki məndən heç ayrılmır. Həsənağa gedən günü gözlərim doldu. O gün mənim üçün çox ağır oldu. Mən ilk dəfə idi ki, Həsənağamdan ayrı düşürdüm. Həmin vaxt həyatimizdə bir pişik mənə yaxınlaşdı. Mən o yaşıma qədər həmişə pişikdən ürpərmişəm, amma qorxmamışam. Lakin bu dəfə o pişik mənə yoldaşlıq etdi. Evdə qaldığım müddətdə mənlə yanaşı gedirdi, yuxuya gedəndə çarpayımın yanında otururdu. Bir sözlə, mən bütün mehrimi pişiyə saldım.

Beləliklə, Həsənağa hərbi məktəbdə təhsil almağa başladı. Həsənağa oraya gedəndə öncə onu müəyyən müddət karantində saxladılar. Karantin vaxtı necə dözdüm bunu bir

Allah bilir, bir də mən. Həsənağanın birinci iclasına atası getdi. Düşündüm ki, atası mənə xəbər gətirəcək ki, Həsənağa orada qala bilmir. Amma düşündüyüm kimi olmadı. İclasda "Həsənağanın valideyni kimdir?" deyə sual veriblər. Atası "mən" deyə cavab verib. Atasından gözləməsini xahiş ediblər. Atası düşünüb ki, Həsənağanın məktəbdə qala bilmədiyini deyəcəklər. Amma ondan "sizin nəslinizdə hərbçi varmı?" deyə soruşublar. Atası cavabında "Xeyr, bizim nəslimizdə oxuyan sayladır" deyib. O isə deyib: "Sənin oğlun hərbçi doğulub". Atası bunu mənə deyəndə mən hər şeydən əlimi üzdüm.

Beləliklə, Həsənağa C.Naxçıvanski adına hərbi liseyi oxumağa davam etdi. Sonra Həsənağanın həftə sonları evə gəlməsi üçün notariusdan icazə kağızı aldıq ki, biz həqiqətən Nardaranda yaşayırıq. O, ata-anasının yanına həftə sonları gələ bilər. Biz o kağızı alıb məktəbə verdikdən sonra onu evə buraxdılar. Həsənağanın gəlişi mənim üçün bayram idi. O hər gələndə mən onun üçün ən əziz yeməkləri bişirirdim. Hər dəfə ondan soruşanda "ora necədir?" Həsənağa çətin olduğunu demir, əksinə oranın maraqlı olduğunu deyirdi. Həsənağa orada tağım komandiri idi.

Həsənağa C.Naxçıvanski adına hərbi liseyi bitirdikdən sonra Heydər Əliyev adına Ali Hərbi Akademiyaya daxil oldu. Orada oxuduğu müddətdə də seçilmiş bir uşaq oldu. Hər həftə sonu evə gəlirdi və həmişə mənim ən xoşladığım şeyləri alıb gətirirdi. Onun bu qədər diqqətcil olmağına bir tərəfdən sevinirdim, digər tərəfdən də düşünürdüm ki, ilahi, bu uşaq mənə nə qədər bağlıdır. Çünki o məni hədsiz çox istəyirdi, mən də onu. O qədər mənə bağlı idi ki, hətta evlənəcəyi qızı



da mənim seçməyimi istəyirdi. Axırıncı kursu oxuyanda bir kəlməsi ilə bunu mənə bildirdi ki, ana, sən necə istəsən, elə də olacaq, ancaq mənim xasiyyətimə uyğun olsun. O bununla demək istəyirdi ki, mən ağır təbiətli qız istəyirəm.

Həşənağam çox düşüncəli, hər kəsin qayğısına qalan bir insan idi. Ali Hərbi məktəbin 4-cü kursunda oxuyanda onu məktəb üzrə təşkilat sədri seçdilər. Orada ictimai işlərlə çox məşğul olur. Bir dəfə məktəbin bir neçə tələbələrin adı prokrorluğa veriləcəkdi. Həsənağa orada demişdi ki, siz nə edirsiz? Uşaqların həyatını söndürərsiniz, əksinə, onları yenidən həyata qaytarmaq lazımdır. Həmin vaxtlarda da məktəbin generalı Həsənağanı çağırıb demişdi ki, bundan sonra uşaqlar haqqında qərar verəndə səndən soruşacağam.

Həsənağa yaxşı qiymətlərlə Ali Hərbi məktəbi bitirib, diplomunu müdafiə etdi və dövlət imtahanını verdi. Sonra Təlim-tədris mərkəzinin zabit təkmilləşdirmə kursu üzrə bir illik təhsil aldı. Daha sonra Həsənağa bağa gəlib-getmək çətin olduğu üçün yoldaşları ilə bir illik şəhərdə kirayə evdə yaşadı. Yenə də Həsənağa həftədə bir gün yox, elə olurdu iki gün, üç gün yanıma gəlirdi.

Bir gün mənə zəng edib, dedi ki, ana, hərbi xidmətə Gədəbəyə təyin olunmuşam. Mən Həsənağanın ora təyin olunmasına sevindim. Hər şeyin yaxşı olacağını düşündüm. Sonra həmin gün evə gəlib, Mirkazım adında dostu ilə onları yola saldıq. O gedəndən 1 həftə sonra öyrəndim ki, Həsənağa özü öz istəyi ilə ən çətin yüksəkliyə, Qoca Dağa adını yazdırıb. Oranın qarının yaya qədər qaldığını hamı yaxşı bilir. Həsənağa Qoca Dağda çox işlər gördü: dağın başında iplə yol, telefon xətti çəkdirdi. Çatışmayan şeyləri də

bizə aldırırdı. Əlindən gələn hər şeyi etdi ki, əsgərlər əziyyət çəkməsin. Həsənağa Qoca Dağda abad bir yer yaratdı. Heç 6 ay tağım komandiri olmadı. Qısa müddətə onu Gədəbəydə bölük komandiri vəzifəsinə təyin etdilər. Bölük komandiri olanda da Həsənağa bütün həvəsini, istəyini hərbi hissələrə bağladı. Orada da böyük işlər gördü. Əsgərlər üçün hamam tikdirdi, bağ saldırdı. Həsənağa hara gedirdisə, onun adı orada səslənirdi. Hər kəs Həsənağanın etdiyi gözəl işlərdən danışırdı. Mən isə artıq onun səsi ilə yaşamağa öyrəşmişdim. Gündə bir dəfə zəng edir, mənimlə maraqlanırdı. Onunla telefonda danışdığım müddət mənim üçün həyatın ən dəyərli zamanı idi.

Həsənağa hər evə gəlişində mənim üçün ya bağ salırdı, ya oturacaq düzəldirdi. Məni xoşbəxt etmək üçün əlindən gələn hər şeyi edirdi. Yəni nəsə etmək istəyirdi ki, anam sevinsin. 8 il hərbdə oxuyan müddətdə hər dəfə evə gələndə heç nəyə pulu çatmasa da, ən azı bir plitka şokolad alıb gətirirdi. Mən bir şey istəyirdimsə, hər kəsdən qabaq Həsənağa bilirdi və onu mənim üçün edirdi. Bəzən özümə bunlarla təsəlli verirəm.

Həsənağa 3 il Gədəbəydə xidmət etdi. Bir gün zəng edib mənə dedi ki, ana, mənim təyinatımı Toğanada, Murovdağa veriblər. Mən bilirdim, mənim balam hara getsə, uğur onunla olacaq. Çünki onda olan həyata həvəs, enerji, liderlik ruhu onun həyatı işi idi. Beləliklə, Həsənağa 2018-ci ildə Toğanaya bölük komandiri olaraq gəldi.

İmkanımız yaxşı olmadığı üçün Həsənağanın evlənməsi bir az gecikdi. Ona görə də indi əziyyət çəkirəm ki, kaş oğlum daha tez ailə həyatı qurardı. Onun ailə qurması belə oldu



ki, Gədəbəydə olanda yay aylarında yanımıza məzuniyyətə gəlmişdi. Bizim də evdə qonağımız vardı. Həsənağa gəlişi hər şeyi dəyişir, sanki evdə bayram olurdu. O gələn günü hər kəs bizə toplaşır, böyük süfrə açırdıq. Həsənağa qonaqlıqda məndən nəsə istədi. Mən də dedim ki, yoruldum a bala, qızım da yoxdur ki, mənə kömək etsin. Həsənağa bu zaman dedi: "Ana, qızının da, gəlininin də olmamağının günahı məndə deyil". O, sözü heç gülmədən, ciddi şəkildə dedi. Həsənağa sözü bir dəfə deyirdi. Onun hər sözünün içində bir dərin məna olurdu. Oğlum bu sözü ilə də mənə bildirmək istəyirdi ki, artıq məni evləndirə bilərsiniz. Öncə onun nə demək istədiyini yalnız mən anladığımı düşündüm. Lakin sonra gördüm ki, atası da, qonaqlar da onun fikrini anlayıb.

Biz 2019-cu ildə qərara aldıq ki, Həsənağanı evləndirək. Özünün razılığı ilə 2019-cu ilin martın 9-da oğlumun ad günündə öz bacım qızına elçiliyə getdik. Razılıq cavabından sonra toya hazırlıq görməyə başladıq. Həmin zamanda balam öz istəyinə qovuşacaq deyə çox sevincli idim, özümü dünyanın ən bəxtəvər insanı kimi hiss edirdim. Həsənağa işi ilə əlaqədar olaraq çox icazə ala bilmədiyi üçün iyun ayının 20-si nişanı etdik. Nəhayət, avqustun 17-də onun toyu oldu. O gün həyatımda dünyanın ən xoş günü, ən gözəl günü idi. Ömrümdə ən xoşbəxt olduğum gün Həsənağanın bir dünyaya gəlişi, bir də onun toy günü idi. Həsənağanın toyu çox gözəl guşəli açıq bir meşədə oldu. Bu toy yaddaşlarda qalan tarixi bir toy idi. Həsənağa 5-6 gündən sonra işə çıxmalı idi. Ona görə də ailəsini götürüb, Gəncə şəhərinə yola düşdü. Gəncədə kirayə evdə yaşamağa başladılar. Təxminən avqustun axırları olardı. Oğlum zəng edib dedi ki, ana, yanımıza gəl. Mən də



Respublika Uşaq
KİTABXANASI
İNV. № 121350

onun yanına getdim. Balam bilmirdi ki, anam yanıma gəlib deyə nə etsin. Mənə orada nələr etmədi? Mənə dünyanın ən şirin şeylərini yaşatdı. 2019-cu il sentyabrın 12-si ad günüm idi. Can parçam mənim üçün elə gözəl, elə mükəmməl ad günü keçirdi ki. Balam, balam, mənim hər şeyim, balam... Ad günü keçirdikdən sonra mən onun yanından qayıtdım. Getməyimi heç istəmirdi. Atası evdə tək idi. Onun yanına getməli idim. Düşündüm ki, inşallah qismət olar, yenə birlikdə yaşayarıq. Amma nə biləcəkdim ki, belə olacaq... Əgər bilsəydim heç zaman Həsənağamı tək buraxmazdım. Mən qayıdıb gəldikdən sonra atası Həsənağanın yanına getmək, onu görmək istədiyini dedi.

Dekabr ayında yeni ili birlikdə keçirək deyə onun yanına yenidən yollandıq. Balamın yanında ən gözəl günləri yaşadıq, daha doğrusu, ən gözəl günləri Həsənağa bizə yaşatdı. Yeni ili birlikdə keçirdik. Bizi Göygöldə gəzdirdi. 2020-ci ili orada qarşıladıq. Mən elə düşünürdüm ki, 2020-ci il həyatımın ən gözəl ili olacaq, bunu ümid edir, bu ümid ilə yaşayırdım. Düşünürdüm ki, nəvəm olacaq, ən gözəl il olacaq. Lakin bilmirdim ki, 2020-ci il həyatımı söndürəcək, ümidimi kəsəcək, hər şeyimi əlimdən alacaq... Bilsəydim, bir an belə balamdan ayrı qalmazdım. 2020-ci ili qarşıladıqdan sonra biz Nardarana, öz evimizə qayıdıb gəldik. Bir az keçdikdən sonra zəng edib dedi ki, ana, vəzifəmi dəyişib məni kursa göndərirlər. Balam 45 gün mənim yanımda qalacaq deyə sevincimin həddi-hüdudu yox idi Onun öz ailəsi ilə yanıma gələcəyi üçün çox sevinirdim. Gəldilər, imtahan verib kursa qəbul oldu. Orada oxumağa başladı. Təxminən 10 gün qaldıqdan sonra gedib-gəlmək çətin olduğu üçün şəhərdə



bir ay kirayə evdə yaşamaq istədiyini, həftə sonları da mənim yanıma gələcəyini dedi. Necə olsa balam yanımdadır deyə düşündüm. Beləliklə, balam kursu müvəffəqiyyətlə bitirdi. Gedəndən sonra zəng edib dedi ki, ana, məni qərargah rəisi təyin ediblər. Əlbəttə ki, sevinirdim. Çünki mənim balam baş leytenant ola-ola, həmişə öndə idi. Sonra onların hərbi hissəsini aşağı köçürdülər. Düşündüm ki, balam mənə bir az da yaxınlaşır. Çox sevinirdim. Amma deyir sən saydığın say, gör fələk nə sayır.

Həsənağa vaxt edə bilmədiyi üçün yanımıza gələ bilmirdi. Bizə də gecə-gündüz təlimlərdə olduğunu bildirmirdi. Sonra nə yaxşı ki, sentyabrın 19-da atası məni Gəncəyə yola saldı. Mən balamı gördüm, balam da məni gördü. Bu an dünyanın ən gözəl məqamı idi. Üç gün qaldıqdan sonra Həsənağaya qayıtmaq istədiyimi dedim. Çünki atası evdə tək və xəstə idi, ona qulluq etməli idim. Həsənağa da həmin zamanda mənə bildirmədi ki, artıq müharibə qərarı verilibdir. Yavaş-yavaş gördü ki, getmək üçün çox israr edirəm, dedi ki, ana, heç olmasa şənbə günə kimi qal. Mənim israrımdan sonra bir təhər dedi: "Ana, belə bir şey olacaq. Sən getmə, gözlə, mən gedəndən sonra sən gəlini aparıb gedərsən". Mən həddindən artıq çox pis vəziyyətə qaldım. Ona yalvarmağa başladım ki, sən getsən, Həsənağa, mən sənsiz yaşaya bilmərəm. Həsənağa isə: "Ana, başa düşmədim, sənə müharibə lazım deyilsə, mənə lazımdır. Biz nə üçün yaşayırıq? Gecə-gündüz nə üçün çalışırıq? Gecə-gündüz nə üçün mən təlimdəyəm? Mən 2020-ci il başlayandan bu yana 1 saatdan artıq yatmamışam, buna hazırlaşmışam. Mən arzuma çatacağam, Kəlbəcərə bayraq sancacağam! Səni digər səfərdə Kəlbəcərə

F. Köçərli adına
Respublika Uşaq
KİTABXANASI
İNV. № 121350

aparacağam! Səni elə gözəl yerdə yaşadacağam ki, özüm də Kəlbəcərdə, orada qalacağam". Mən deyirdim ki, Həsənağa, nə vaxta kimi mən səni uzaqlardan izləyəcəyəm, sevəcəyəm? Özün üçün bir az rahat yer tap. O isə deyirdi: "Yox, ana, hər şeyin bir vaxtı var. Mən Kəlbəcərdə işləmək istəyirəm. Orada bayrağı sancım, qələbəni qeyd edək, ondan sonra baxarıq". Çox danışdım, çox yalvardım, çox dedim. Ürəyimə sanki ox batırdı, ancaq yenə də büruzə verə bilmirdim, içim-içim yanırdım ki, axı müharibə nə deməkdir... Mənim balam elə böyük ümidlərlə danışırdı ki. Məni bir təhər razılığa gətirdi ki, orada qalım. Balama baxıb hər gün fikirləşirdim, ay Allah, necə olacaq? 3-4 gün Həsənağa işdən hər gələndə mən oturub ona tamaşa edirdim. Sanki Allah məni belə bir vəziyyətə salmışdı ki, mən onun üz cizgilərinə kimi diqqətlə baxıb, onu bir ömürlük yaddaşma həkk edim. Yoldaşı da mənimlə birgə oturub diqqətlə baxırdı. Bir gün dedi ki, bu gün görüşüb gedirəm. Axşam zəng etdi ki, ana, könüllüləri siyahıya aldığımıza görə getməmişəm. 2-3 gün Həsənağa o könüllülərin siyahıya alınması üçün evə gecə gəlirdi. O, 26-sı səhər tezdən getməyə hazırlaşırdı, çünki getməkləri üçün maşın qapıya gəlmişdi. Balamın ailəsi ilə görüşməsi üçün bir az otağımdan gec çıxdım. Ailəsinin onu yola salmağa hazırlaşdığını görüb: "Həsənağa, gözlə, anan gəlir,"- dedim. O isə: "Ana, sən zəhmət çəkmə. Mən gəlib yerində səninlə görüşərəm,"- dedi. Həsənağa məni yatdığım yerdə gəlib, öpüb, qucaqladı. O günü, o dəqiqəni, o saniyəni bir daha yaşamaq üçün ömrümü, nəfəsimi, hər şeyimi verməyə hazıram. Mənim bir az doluxsunduğumu görüb, ətrimdən vurmaq istədi. Mən onun ətirini işlədirdim, o gündən bu



günə də mən ətir vurmuram. Ətir istifadə etsəm, mən ölərəm. Bilmirəm, onun ətirini istifadə etdiyim üçündür, ya necə? Bir onu Allah bilər, bir də onun qəlbi ki, o nəyə görə məndən ətri istədi. Məni yerimdən durmağa qoymayıb, sağ ollaşıb, yola düşdü. Günortaya qədər bir təhər dözdüm ki, inşallah zəng edib, bu gün də evə gəlirəm deyər. Ancaq dözə bilmədim, günortadan sonra zəng etdim. Can parçam artıq yol üstündə idi. Bunu biləndə mən sanki yenidən öldüm, içimdən nəsə qırıldı. O hissi ifadə etmək mümkün deyil. Həmin gün 26-sı mənim üçün qurtarmaq bilmədi. 26-sı gecə, səhərə yaxın bir kəlmə yoldaşına demişdi ki, narahat olmayın, müharibə başladı, anamdan müğayət ol, onu tək qoyma. Səhər gözümüzü açanda bütün televiziyalar, radiolar müharibənin başlanmasını qeyd elədi. Həmin gün sanki dünya başıma yıxılmışdı. 27-si gecə yenə zəng etdi. 28-i, 29-u kiminləsə xəbər göndərdi ki, atama, anama mənim üçün narahat olmasınlar deyin. Oktyabrın 2-sinə kimi hər gün zəng edirdi. Ayın 1-i zəng edəndə axşam üstü idi. Təxmini saat 6-ya qalmış idi . Elə gözəl danışırdı ki... "Həsənağa, ayağının altında ölərəm, bala, sənə bir şey olsa, mən yaşaya bilmərəm," - dedim. O da dedi: "Ana, nə danışırsan? Biz çox gözəl hazırlıq görmüşük. Bizim etdiklərimizi bilsən bizimlə qürur duyarsan, ana". Yoldaşı ilə mən mikrafona qoyub onun danışdıqlarını dinləyirdik. Bizlə danışandan sonra atasına zəng edib. Sanki ürəyinə damıb ki, bu mənim axırıncı gedişimdir, qoy atamla da danışım... Atasına da bir vasitə ilə zəng edib, deyib ki, ana ilə danışdım qoy bir dəfə də səninlə danışım. Balam oktyabrın 1-nə qədər yol gediblər, 2-si Kəlbəcərdə şəhadətə qovuşub. Sanki ona agah olub ki,

bilməsin deyə gizlində ağlayırdım, qışqırırdım. Yoldaşım məndən, mən ondan gizlin ağlayırdım. Biz hisslərimizi bir-birimizdən gizlədirdik. Özümü qürurla saxlayırdım ki, Allahla əhd etmişəm ki, onu mənə göstər.

Beləliklə, yanvar ayının 13-ü mənim üçün dünyanın ən bədbəxt, ən qaranlıq günü idi. O gün yoldaşıma zəng etdilər ki, övladınız Silahlı Qüvvələrin Baş Klinik Hospitalına gətiriblər. O, yenə bir vasitə ilə məndən gizlətdi ki, nə qədər şəhid gəlib. Biz gedib baxaq. Çünki Həsənağa ilə bağlı şübhələrimiz olduğu üçün biz 2 dəfə test vermişdik. Səhər oldu. Yanvar ayının 14-ü, nəfəsimi kəsildiyi, həyatımın ən pis günü. Biz ora getdik. Yoldaşıma söylədim ki, nə olur-olsun mənə balamı göstərəcəksən, mən onda qəbul edəcəyəm. Yoldaşım razılaşdı, amma bir şərtlə ki, bəlkə, başqasıdır deyə mənim pis olmamağım üçün öncə özü baxacaq. Otağa daxil olanda mən balamı hiss etdim. Amma qəbul edə bilmirdim ki, balam deyil. O an qışqırmışam. Ondan sonra xəbərim olmayıb ki, məni oradan necə çölə çıxarıblar? Sonra balamı II Fəxri Xiyabana aparıb, mənim gözümün önündə orada dənf etdilər. Ana üçün dünyanın ən qaranlıq günü nə olar? Əlbəttə, balasını gözünün önündə dəfn etmək. Onda da dözdüm, ölmədim. Sanki 112 gün onu gözləməklə Allah məni yavaş-yavaş bu acıya hazırlayırdı. Heç nə hiss edə bilmirdim. Nə ağlaya bilirdim, nə qışqıra bilirdim, nə saçımı yola. Mən ancaq səssiz-səssiz balama layla çalırdım. Onun yoxluğu ilə həyat mənim üçün söndü, hər şey qaranlığa büründü. Mən onun səsi ilə yaşayır, nəfəs alırdım. Həyat mənim üçün onunla başlayırdı. Amma indi... Bu yaşamaq deyil, quru nəfəsimdir, gəlir. Həsənağa qolumun taqəti, sözümün qüvvəti, həyatımın



mənası idi. İndi də çətinliyə düşəndə elə bilirəm, yanımdadır. Yeriyəndə elə bilirəm, arxamdadır. Qaranlıqda elə bilirəm, işığımdır. Mən çətinliyə düşən kimi yuxuma girir, mənə yol göstərir. Fəxri Xiyabana gedirəm, gözlərinə baxıram. Elə zənn edirəm ki, o, yenə məni başa düşür, həminki kimi gözləri mənlə danışır. Həsənağanı itirmək mənim üçün sözlə ifadə edilə bilməyəcək qədər ağırdır. Bu ağrı elə bir közdür ki, düşdüyü yeri çox dərin yandırır. Zaman keçdikcə yaram birləşmir, daha da dərinləşir.

Düzdür, fəxr edirəm, balam şəhiddir. Ən yüksək məqamda, ən yüksək yerdədir. Lakin mənə çox çətindir. O, cənnətdə yaşayırsa, mən bu dünyada cəhənnəm yaşayıram. Mən bu dünyada balam üçün için-için yanıram. Balam elə bir zirvəyə ucaldı ki, hara getsəm, deyirlər ki, Həsənağanın anası, Həsənağanın anası... O məni çox sevirdi çoox. Mənim üçün çox çətindir ki, mən balamın nə özündən, nə sözündən, heç nəyindən doymadım. Ancaq məni həyata bağlayan onun adını yaşatmaq üçün yaşamaqdır. Mənim həyat meyarım bax budur!

# ABDULLAYEV ŞAKİR

(şəhid Həsənağanın atası)

Mən, Abdullayev Şakir Sabir oğlu Lənkəran şəhərində doğulmuşam. Yeganə övladım, şəhid baş leytenant, qərərgah rəisi Abdullazadə Həsənağanın atası olaraq ilk növbədə bu kitabın hazırlanmasında səbəbkar olan anasına və bu işdə əziyyəti olan şəxslərə dərin təşəkkürümü bildirirəm. Həsənağa mənim həyatımda varım, yoxum hər şeyim idi. Mən bir ata olaraq yalnız onunla nəfəs alırdım. Oğlum şəhid olandan sonra mən yaşamaqdan imtina etmişdim. Sonradan bir neçə din xadimlərindən: Hacı Şahindən, Hacı Ramildən və onların tələbələrindən şəhidlər haqqında Allahın hüzurunda həddən artıq yaxın olduqlarını, Vətənini ata, ana, həyat yoldaşını və öz övladlarından üstün tutduqlarını eşitdikdən sonra həyatımın qalan hissəsinə davam etməyə başladım. Düşündüm ki, həqiqətən, bu yolda şəhid olmağa dəyərmiş. İndi mənim ata və analardan xahişim var. Öz övladlarınıza hər şeydən öncə vətənin müqəddəs olduğunu aşılayın ki, vətən sevgisi daima yaşasın.

Hərbçi olmaq Həsənağanın öz istəyi olmuşdur. Orta məktəbi əla qiymətlərlə oxumuşdu. Həsənağanın arzusu general olmaq idi. Təəssüf ki, onun ömür yolu da bura qədər imiş. Amma buna əminəm ki, Həsənağa və bütün şəhidlərimiz Allahın izni ilə heç təsəvvür belə edə bilməyəcəyimiz zirvəyə ucaldılar. Biz də şəhidlərimizin hesabına qəhrəmanlarımızın yazdığı tarixin canlı şahidi olduq. Biz bu günləri Ali Baş Komandanımız cənab İlham Əliyevin, qardaş ölkənin prezidenti R.T.Ərdoğanın və güclü ordumuzun sayəsində yaşadıq.



Allahdan çox istədiyim bir arzum var idi ki, Həsənağaya toy etməyi mənə qismət etsin

Bu mənə qismət də oldu. Sonra Allahdan nəvə payı dilədim, amma... Heç dilimə belə gətirə bilmirəm. O, hər şeyin ən gözəlini bilir. İndi isə Allahdan sonuncu istəyim budur ki, mənə şərəfli ölüm qismət etsin. Oğlumu bir dəfə qucaqlayıb bağrıma basım və deyim ki, məni bağışla, səni vaxtında qəhrəman oğul kimi tanımamışam. Tanısa idim, atdığın hər bir ayaq izlərinin ardınca öpə-öpə gələrdim. Allah bütün şəhidlərimizə rəhmət, valideynlərinə və həyat yoldaşlarına səbir versin.

## ABDULLAZADƏ MİRVARİ

(şəhid Həsənağanın həyat yoldaşı)

Mən, Abdullazadə Mirvari Şəhid Abdullazadə Həsənağanın həyat yoldaşıyam. Həsənağa həm can dostum, həm həyat yoldaşım, həm də xalamoğludur. Həsənağa haqqında yazmaq qürurlu olsa da, mənim üçün onunla olan xatirələrimi bölüşmək çətindir. Bizim 17 avqust 2019-cu ildə Lənkəranda Həsənağanın da sevdiyi kimi açıq havada "Dörd fəsil" restoranında çox gözəl toyumuz oldu. Bir neçə gün sonra Gəncəyə köçdük. Həsənağa Göygöldə işləyirdi, ancaq biz Gəncədə yaşayırdıq. Hər gün səhər saat 5-də Həsənağanı işə yola salırdım, axşam hava qaralandan sonra isə pəncərə qabağında onu gözləyirdim. Otağın işığını yandırmırdım ki, evin içi görünməsin. Qaranlıqda oturub, pəncərədən onun gələcəyi tərəfə baxırdım. İş yoldaşı qonşu olduğu üçün çox vaxt onunla işə gedib-gəlirdi. Maşından düşəndə "yaxşı, qaqa, sabah görüşərik" sözün eşidəndə sevinirdim. Bilirdim ki, gələn Həsənağadır. Tez qaçıb, qapını açırdım. Həsənağa pilləkənləri qalxanda məni qapının ağzında görüb təəcüblənirdi: "Hardan bildin, gəldiyimi?" Mən də təsadüfən gördüm deyirdim. Daha bilmirdi ki, hava qaralandan pəncərə qabağında onu gözləyirəm, indi isə Həsənağam məni cənnətdə gözləyir.

Həsənağa ilə 1 il 4 ay evli olduq, amma 3 il ərzində (09.03.2019-cu il elçiliyimiz, 20.07.2019-cu il isə nişanımız) bir-birimizin xasiyyətinə bələd olduq. Nəyi sevdiyini, nəyi sevmədiyini bilirdim, o da mənim kimi. Həsənağadan küsəndə həmişə bu sözü işlədirdi: "Ürəyim, sən onu bil ki, istər bu dünyada, istər də əbədi dünyada sən mənimsən,



mən də sənin. Bu dəyişən deyil". Həsənağanı dəfn edən vaxt bu sözü yadıma düşdü. Bilirəm ki, Həsənağamın dediyi kimi inşallah əbədi dünyada da onun yanında olacağam. 08.03.2021-ci il gördüyüm yuxu gerçək olacaq.

Mənim üçün Həsənağa ilə bağlı xatirələrimi bölüşmək çətindir. Həsənağanın şəhid olmağını bilmirdik. 112 gün ərzində itkin olan vaxt hər gün yuxuda görürdüm. Hər səhər yuxudan oyanan kimi internetdə yuxunun mənasına baxırdım. Həmişə də yaxşı olurdu. Onu dəfn etdikdən sonra yuxuda görsəm də, danışmırdı. O ancaq bir dəfə danışıb, qalan yuxularımda baxıb gülür, qucaqlıyır, amma danışmır. Bilirəm ki, yeri rahatdı, cənnətdədir.

Həsənağa müharibəyə gedən gündən hər gün danışırdıq. Mənə ilk zəngi sentyabr ayının 28-i səhər saat 03:33-də olub. Onda o, hər şeyin yaxşı olduğunu dedi. Arxadan gələn səslərə görə Həsənağanın səsini yaxşı eşitmirdim. Sağ ollaşdıq, sonra mesaj yazdı: "Ürəyim, narahat olma, yaxşımı? Səni çox sevirəm". Bilirdi ki, narahatam. Bu onun son mesajı oldu. Son zəngi də oktyabrın 1-i oldu. Öncə ana ilə danışdı, sonra mənimlə danışmaq istədi. Telefonun diktafonunu qoşdum ki, ana da oğlunun səsini eşitsin. İndi az da olsa, qəlbimdə onun peşmanlığı var ki, bəlkə, Həsənağanın məndən soruşacağı sözləri vardı (vardı)? Ancaq çox da peşman deyiləm, ən azından onun səsini anası məndən çox eşitdi.

Həsənağamı oktyabrın 3-ü axşam yuxuda gördüm. Dumanlı yer idi. Yerdə yaralı olan əsgərlər vardı. Hər yer qan idi, hamı ağlayır, mən isə Həsənağanı axtarıram. Həsənağanı uzanan vəziyyətdə gördüm. Dedilər, Həsənağa şəhid oldu. Tez ayıldım. Həsənağaya zəng etdim, zəngə cavab vermədi.

Mesaj yazdım, ondan da cavab gəlmədi. Səhərə qədər ağladım. Amma anaya bir söz belə demədim ki, narahat olar. Gedib suya danışdım, səhər ana zəng edən kimi yuxumu anaya danışdım. Ana məni sakitləşdirməyə çalışdı. Sonra Gəncəyə bomba atılanda Həsənağanın zəng etməməyi məni daha da narahat edirdi. Həsənağanın əli qanda olsa belə, bilir ki, anası ilə mən Gəncədəyik, zəng edərdi. Oturub ağlayırdım, ana da məni sakitləşdirməyə çalışırdı. Bilirdim ki, nəsə olmasa özü zəng edə bilməsə belə, kiminləsə xəbər göndərərdi. Ancaq oktyabrın 2-si artıq Həsənağa şəhid olmuşdu. 112 gündən sonra Həsənağa gəldi. Silahlı Qüvvələrin Baş Klinik Hospitalına daxil olanda elə gözəl qoxu gəlirdi ki. Həsənağanın olduğu otağa tərəf getdikcə həmin qoxu daha da artırdı. Bu qoxu Həsənağamın qoxusu idi, otağa daxil olmadan əvvəl onun saçının duruşunu gördüm. Həsənağa həmişə saçını yuyandan sonra çağırırdı, gəl, saçımı fenlə qurut, daraqla düzəlt. Ona görə Həsənağanın saçının duruşundan orada cansız uzananın onun olduğunu bildim, Həsənağamdır. Amma yenə qəbul edə bilmədim. Otağa daxil olub, hər yerinə baxdım. Həsənağa olduğunu bilsəm də, həyat yoldaşım olduğunu qəbul etmək istəmirdim. Sonra sanki anidən yuxudan oyandım. Mən nə edirəm? Mən bilə-bilə ki, bu Həsənağadır, mən necə qəbul etməyib, Həsənağa deyil deyirəm. Həsənağamı orada tək qoyub getsəm, nə mən özümü bağışlayardım, nə də o məni bağışlayardı. Atama onun Həsənağa olduğunu dedim. Ətrafdan heç kim buna inanmaq, bəlkə də, qəbul etmək istəmirdi. Amma o, Həsənağa idi. Həsənağanın qabaq dişində azca sınıq vardı. Bəlkə, inanmazlar deyə onun şəklini tapıb göstərdim. Onsuz



hər şey təsdiqlənmişdi. DNK analizi bəlli idi, amma biz qəbul edə bilmirdik.

Mən bilirəm ki, Həsənağamla görüşəndə mənə deyəcək: "Ürəyim, məni ən yaxşı sən tanıyırsan". Nəsə halsız olanda da deyirdi: "Ürəyim, səni məndən yaxşı tanıyan olmaz". O mənim xasiyyətimi çox yaxşı bilirdi, mən də onun. Həsənağanı o gün dəfn edib evə qayıdanda ancaq həmin qoxu burnumda idi. Elə o axşam yuxuda Həsənağanı yuxuda gördüm. Mənə baxıb elə gözəl gülürdü ki, sanki sağdır, yanımdadır. O gün Həsənağama söz verdim ki, həyatda birlikdə edəcəyimiz işləri cismən yanımda olmasan da, mən edəcəyəm. Sənin yanına alnı açıq, üzü ağ gələcəyəm və Allahın köməkliyi ilə söz verdiyim işləri görüb yanına getmək istəyirəm. Həzrəti Əlinin (ə.s) bir sözü var: "Ayrılıq göz ilə sevənlər üçündür, qəlb ilə sevənlər heç vaxt ayrılmaz".

Həsənağa ilə arzularımız çox idi. Həsənağa deyirdi ki, Allah bizə həyat evi qismət etsin. O həyatdə sənin üçün elə gözəl güllər əkəcəm ki, bizə gələn hər kəs bunların evi cənnətdir ki deyəcək. Həsənağa gülləri çox sevirdi, xüsusən də dibçək güllərini. Elçiliyimizdə anası mənim üçün böyük buketdə nərgiz gülü gətirmişdi. Yazmışdı ki, mən anaya dibçək gülü almağını demişdim, ancaq ana başa düşməyib. Həsənağaya nərgiz gülünün ən sevdiyim gül olduğunu dedim və o sevindi. Mən inanıram ki, həmin gülləri cənnətdə mənim üçün əkir. İnşallah, Həsənağamın yanına getdikdə bizim üçün etdiyi gözəllikləri görəcəyəm. Bir gün gerçəklər xəyallardan daha gözəl olacaq. Bu dünyada son olsa da, sonsuzluğu əbədi dünyada yaşayacağıq. Həsənağamın nişan üzüklərimizin içinə yazdığı kimi H∞M (H sonsuzluq M) olacaq.

Mən Həsənağama başqa ölüm yaraşdırmazdım, çünki ürəyi təmiz, mehriban özündən öncə başqasını düşünən, vətənini ailəsindən, valideynlərindən, ən əsası öz canından üstün tutan insana ən uca məqam olan şəhidlik yaraşardı. Həsənağa başımın tacıdır. Ömrümün sonunadək də belə olacaq, hər zaman qəlbimdə yaşayacaq. Həsənağamı dəfn etdikdən sonra hər gecə etdiyim dua var: Allahım məni alnı açıq, üzü ağ Həsənağama qovuşdur, məni tək qoyma Allahım. Sonra kəlimeyi-şəhadəti oxuyub yatıram. Hər keçən gün daha da Həsənağaya yaxınlaşıram, cismən yanımda olmasa da, ruhən hər zaman yanımda olduğunu bilirəm. Hər zaman hər işimdə mənə kömək olduğunu bilirəm.



## KAZIMOVA MƏDİNƏ

(şəhid Həsənağanın bibisi qızı)

Həsənağa sonuncu dəfə hər zamankı kimi öz missiyasını çox məharətlə yerinə yetirib, birdəfəlik aramızdan getdi. Bəli, öz missiyasını… Amma bu dəfə fərq onda oldu ki, o təkcə ailənin, qohum-əqrəbanın deyil, bütün Azərbaycan xalqının sevgisini, rəğbətini qazanmış oldu. Bu heç təəccüblü olmadı, çünki Həsənağa hər zaman hər kəsin sevimlisi idi. Dünyaya gəlişindən ölümünə qədər bütün həyat hekayəsi digərlərindən çox fərqli oldu. Bir bacı üçün qardaş nə deməkdirsə, Həsənağa mənim üçün ondan da üstündür. Bioloji olaraq bacı-qardaş olmasaq da, həyatın gedişatı bizi illərlə bir dam altında birləşdirib acılı-şirinli, varlı-yoxlu, yaxşılı-yamanlı günləri birlikdə yaşatdı. Həsənağa məndən 4 yaş balaca idi. Balaca olmasına baxmayaraq, o illərdə hər zaman mənə arxa, dayaq olmağa çalışdı. Eyni məktəbdə təhsil alırdıq. Demək olar ki, bütün tanıdığımız insanlar ortaq idi. Məhz indi o insanlar da Həsənağa haqqında çox müsbət xatirələrini, fikirlərini mənimlə bölüşürlər. Onunla bağlı çox xatirələrim var. Amma onları yazmaqla bitib, tükənməz. Həsənağanın mənim həyatımda qoyduğu izlər ölənədək yaddaşımdan silinməyəcək.

Bəziləri düşünə bilər ki, bir bacı qardaşı haqqında mənfi nə söyləyə bilər ki? Səmimiyyətimə heç şübhəniz olmasın ki, biz onunla iki təzadlı insanlardıq. Heç yola getməzdik, amma, bəlkə də, bizim aramızdakı bağ, sevgi elə bu anlaşılmazlıqda gizlənmişdi. Bəlkə də, bu onun doğuşdan gələn hərbçi xarakterindən qaynaqlanırdı. Sevgisini gizlədən, sərt, amma bir o qədər də qayğıkeş, sevimli bir qardaş idi. Özünü

olduğundan daha böyük göstərən hərəkətləri, sözləri sanki onun amalının hər zaman yüksəklərdə olmasından xəbər verirdi. Bir gün mən çox tanınmış bir insan olacağam deyərdi. Hətta biz tez-tez bir oyun oynayardıq. Mən jurnalist olardım, o isə adsız, amma çox tanınmış biri kimi özünü təqdim edərdi və beləcə biz oyunu bu motivdə davam etdirərdik. "Niyyətin hara, mənzilin ora" doğru sözmüş. İndi qardaşım bütün ölkədə tanınır, fəxr, qürur hissi ilə yad edilir.

Həsənağa bəzən məni acılayıb, tənbeh edərdi. Uşaq ağlı ilə deyil də, indiki düşüncəmlə anlayıram ki, Həsənağa bir növ acıladığı sözləri ilə mənim nə qədər sadiq, sir verməyən biri olduğumu test edib, sözündən kənara çıxmamağımı tərbiyyə edirmiş. O qədər işlədərdi ki, bu ifadələri: "Anaya xəbərləmə, ona heç nə demə". Əslində mənim xasiyyətimi bilirdi. Sadəcə bu onun tənbehinin bəhrəsi imiş kimi və məni tabeçiliyində saxlamanın verdiyi bir komandan kimi hərəkət edərdi.

Həsənağa tərləyib, tez-tez xəstələndiyi üçün idman dərslərində daha az hərəkət etməsi üçün evdə tənbehlənərdi. Bir gün idman dərsində istədiyi qədər məşq edib, turnikdən yıxılaraq qolunu qırmışdı. Biz dərsdən evə gəlib, iki günahkar kimi sakitcə günü tamamlamağa çalışdıq. Məlumunuz qədəri ilə mən xəbərçilik edə bilməzdim. Həsənağa da turnikdən yıxıldığını desə, ananın sözündən çıxmış olacaqdı və beləliklə, biz səssizliyə tabe olmuşduq. Yavaş-yavaş Həsənağanın qolu şişir, ağrıya tab gətirə bilmirdi, amma yenə də dişini sıxıb özünu ələ verməkistəmirdi. Artıq hava qaralmışdı. Həsənağa özündə deyildi hərarəti qalxmış, qolu çox şişmişdi və bizim dirənişimiz də bura qədər olmuşdu. Gecə ilə Həsənağanı



sınıqçıya aparıb qolunu sarğıya salmışdılar. Bu da ona ananın sözündən çıxmağın böyük cəzası olmuşdu. Mənimsə vicdani cəzam bacı olaraq qardaşın qeydinə qala bilməmək hissi vermişdi.

Həsənağa elimli, dərrakəli olduğu qədəri ilə, eyni zamanda istedadlı, fərasətli idi. Mənim saatlarla dərslər üzərində çalışdığıma baxmayaraq o, 10 dəqiqəyə mətni əzbərləyib danışar, yaxşı qiymət alar, mənə də gülərək istehzalı öyüd nəsihətlərindən verərdi və beləcə, aramızda dava-dalaş başlayardı. Bir çoxlarınızın yadına gələr, bəlkə, böyük muzikalni tapılar. Yaxşı xatırlamıram, onu almışdıq, yoxsa kimsə Həsənağaya hədiyyə etmişdi. İçinə balaca kasetlər qoyub oxutmaq olurdu. Bir gün evdə ikimiz tək olanda onun səsini sonuna qədər açıb çox əylənmişdik. Hətta qonşunun qızı da səsi eşidib, gəlib bizə qoşulmuşdu. O gün Həsənağa gözümə çox dəyişik görünürdü. Mən başa düşmüşdüm ki, o kimisə sevir. Bunu seçim etdiyi mahnılardan hiss edirdim və beləcə mənim əlimə çox böyük şans düşmüşdü. Çox keçmədi, mən onun kimliyini öyrəndim. Mən Həsənağaya bəzi dərslərində köməklik edərdim. Həmən günlərin birində dərsliyi vərəqləyəndə nə görsəm yaxşıdır? Şəffaf bir listdə qızın adı ilə mən səni sevirəm yazılmışdı. Əlbəttə ki, mən o qızı tanıyırdım və Həsənağanın mənim əlimdən qurtuluşu yox idi. Onun mənə etdiklərini indi mən ona edirdim. Hər fürsətdə bundan səmərəli istifadə edib, onu qıcıqlandırırdım. Hələ onun ağlayan səs tonu ilə: "Ana, bu qıza de ki, əl çəksin məndən". O səs qulağımdan heç getmir...

Həsənağa ilə mehriban, deyib-gülən günlərimiz də olurdu. Bu daha çox axırıncı illərimizdə, yəni mənim

orta məktəbdəki son ilim onun da səkkizi bitirib hərbiyə gedəcəyi il. Mən indi dərk edirəm ki, o, həqiqətən də, hərbi üçün doğulmuşdu. Nizam-intizamlı, ciddi, yerini bilən, hamının hörmətini qazanan bir uşaq idi. Həsənağanın bir nüansını da danmayacam. Bütün bu insani keyfiyyətlər onun canında olduğu qədəri ilə bu keyfiyyətlərə daha da yiyələnməsində Səmilə anamızın böyük əziyyəti var. O belə bir qəhrəman övlad yetişdirib, boya başa çatdırdı. Min bir əziyyətlərə qatlanıb onun bir istəyini iki etmədi. Belə bir anaya yalnız Həsənağa kimi övlad layiq ola bilərdi. Mən fəxr edirəm ki, belə bir qəhrəman yetişdirən ananın tərbiyyəsinə yiyələnib, böyümüşəm. Mən ona bir ömür borcluyam. Bu gün bu sətirləri yazmaq o qədər çətindir ki, mənə heç bir acı bu qədər incidici olmamışdı. Bu sadəcə bir qardaşı, əzizini, yaxınını itirməyin acısı deyil, həm də yoxluğunu bir ömür qəbul edə bilmədiyim insanla son illərdə daha çox vaxt keçirə bilməməyin heyifsilənməsindən doğan özünü bağışlaya bilməməkdir. Ən çox bu acı verir. Onun hərbiyə gedişindən sonra bizim yollarımız da ayrılmış oldu. Çox gec-gec görüşər, zəngləşərdik.

Sonuncu dəfə toyunun səhəri yenə münaqişə etmişdik. Gedəcəyim yerə tək buraxmayıb məni rəfiqəmgilə özü aparmışdı. Hələ üstünə tənbehləyib mənsiz getmə, səni gəlib götürəcəm demişdi. Yolüstu bir az keçmiş günlərdən, məktəb illərindən uşaqlığımızdan bəzi epizodları gözümüzdə canlandırıb, dərdləşmişdik. Ona Gəncəyə gələcəyimi söz vermişdim, amma çox təəssüf ki, gedə bilmədim. O gün mən Həsənağanı görmədən şəhərə qayıtmışdım. Sonuncu dəfə onunla martın 9-da ad günündə danışmışdım. Kefi çox yaxşi



idi, birgə danışıb güldük. Hardan bilərdim ki, bir də səsini eşitməyəcəyəm. Bax əsil acı budur.

İndi nə hisslər keçirtdiyimi demək o qədər çətindir ki, fəxr, qürur, acı, kədər... Bir qəhrəmanın bacısı olmaq, onunla bağlı dopdolu bir xatirəyə sahib olmaq necə də gözəl, əvvəzsiz qürur verici bir hissdir. Son nəfəsimədək mən onun üçün yanacam, amma eyni zamanda fəxr edecəm. Mən fəxr edirəm ki, mənim Həsənağa kimi qardaşım var. Həsənağa baş tacımızdır!!!

# MİRZƏZADƏ MURADXAN

(Həsənağanın xalası oğlu)

Mən, Mirzəzadə Muradxan şəhid Abdullazadə Həsənağanın xalası oğlu və eyni zamanda 2019-cu ildən qaynı olmuşam. Həsənağa haqqında nə qədər fikirlər səslənsə, sözlər deyilsə də, mən inanmıram ki, onu tanımaq üçün bunlar kifayət etsin. Çünki onu şəxsən həyatda tanıyan insanlar onun necə vətənə bağlı, qeyrətli, namuslu bir şəxsiyyət olduğunu yaxşı bilirlər. Həsənağa ilə heyif ki, çox vaxt keçirə bilməmişəm, amma sevinirəm ki, heç olmasa az da olsa, bir yerdə keçirdiyimiz vaxtlar olub.

Həsənağa ilə bacımın eviliyinə ilk başda eşidəndə bir az tərəddüd etmişdim, çünki bu evlilik yaxın qohum evliliyi idi. Bu evlilikdən nə bacımın, nə də Həsənağanın ziyan görməyini heç vaxt istəmirdim. Amma bir müddət keçəndən sonra hər ikisi üçün də bu evliliyin ən gözəl olacağını düşündüm. Bu şəxsin Həsənağa olacağı üçün içim rahat idi. Onlar evləndikdən sonra Həsənağanın xidmət göstərdiyi şəhərədə köçdülər. Onları yola salanda son baxışlarım və onların mənə baxışlarını heç vaxt unutmuram, amma içim yenə də rahat idi ki, həyatda ən böyük hədiyyəmi (bacımı) Həsənağaya əmanət etmişəm.

Xaricdə oxuduğum üçün onlara gediş-gəliş edə bilmirdim. Son dəfə 2020-ci ildə Novruz bayramında telefon danışığımız olub. Mənim üçün elə ən gözəl, ən maraqlı bayramım o danışıq olan son bayram olub. Müharibə başlayan gündən hər telefon danışığında Həsənağadan xəbər almağa çalışmışam, çünki həyatımda ən böyük qorxduğum şey onu itirmək olub. Oktyabr ayının 2-dən zənglərinin kəsilməyini sadəcə 1 həftə



bildim. Ölkədən uzaqda olduğum üçün axırda zəng edir, yaxşıdır dedilər. Onda bir az özümdə rahatlıq tapdım. Amma bu rahatlıq çox çəkmədi ki, ürəyimə yenə məni narahat edən hisslər doldu. O hissləri heç vaxt dilimə gətirməyə cəsarət etmirdim, çünki qorxurdum ki, Allah eşidər. Həmişə gözləyirdim ki, müharibə bitsin, Həsənağadan müharibənin canlı şahidi kimi olanları oturub söhbət edəcəyəm. O günü çox səbirsizliklə gözləyirdim, amma çox heyif ki, o gün gəlib çıxmadı. İndi isə səbirsizliklə gözlədiyim gün onu bir gün görməkdir...

Müharibənin bitməsini görəndə çox sevinmişdim və həmin dəqiqə evə zəng etmişdim. Bu xəbəri sevinə-sevinə evə demişdim. Amma çox təəssüf ki, Həsənağanın atası Şakir əmi demişkən ailədə müharibənin bitməsinə elə yalnız mən sevinə bilmişdim.

Həsənağa bundan sonra cismən yanımızda olmasa da, ruhən bütün onu sevənlərin ürəyindədir. Onun bu uca zirvəyə ucalması mənim üçün fəxr ediləsi bir hiss olsa da, acısı ondan da böyükdür. Amma bir insan kimi mənim üçün əsas olan o dünyadakı tutulan yerdir. Həsənağaya görə çox rahatam ki, onun yeri əvəz olunmazdır. Cənnətdir...

## MİRZƏZADƏ İSMAYIL

(Həsənağanın dayısı oğlu)

Mənim Həsənağa ilə bağlı xatirələrim çoxdur. O məndən 5 yaş böyükdür. Elə uşaqlıqdan mənə böyük qardaşım kimi olub. Mən uşaq vaxtından həmişə Həsənağa hara gedibsə mənn də onunla birgə getmişəm. O, elə bir insan idi ki, onunla keçirdiyin vaxtlar sənə ən dəyərli zaman kimi gəlirdi. Əslində özümü şanslı insan kimi görürəm, çünki onunla bağlı xatirələrim kifayət qədərdir və hərdən onunla danışa bilirəm.

Burada danışmaq istədiyim 4 günlük Gədəbəy xatirələridir. Həsənağa hərbi məktəbi bitirdikdən sonra Gədəbəydə tağım kamandiri kimi işə başladı. Mən həmin vaxt bibigildə qalırdırdım. Həsənağa mənə zəng edib, orada ona təzə işə başladığı üçün ofis ləvazimatlarının lazım olduğunu dedi. Mən də kompüter, printer və s. kimi ofis ləvazimatlarını və bibinin qoyduğu ərzaq və başqa şeyləri götürüb Gədəbəyə yola düşdüm. Təxmini 5-6 saatlıq yoldan sonra Gədəbəyin Şınıx kəndinə çatdım. Həsənağa mənə demişdi ki, kəndin axırına gəl, orada mağaza var. Onun yanında məni gözlə. Mən də mağazanın yanında onu gözləyirdüm. 10-15 dəqiqə sonra Həsənağanın atı çaparaq yoldan gəldiyini gördüm. Neçə vaxtdır ki, bir-birimizi görmürdük. Sadəcə "necəsə, ayə" deməklə görüşmüş olduq. Bu xüsusiyyətimiz onunla çox oxşardır.

Gətirdiyim ləvazimatları maşından düşürəndən sonra onları posta qaldırmalı idik. Həsənağa onları posta aparacaq maşın tapdıqdan sonra biz at belində posta qalxdıq. Ömrümdə bir çox ilki Həsənağa ilə yaşadığım kimi ilk dəfə at belinə də



onunla mindim. Həsənağaya heç bir təcrübəm olmadığı və ata minməyə qorxduğumu dedim. O, isə həyatdakı bütün problemləri sadələşdiriyi kimi (yenə də öz qürurlu və məğrur ampulasında) qorxulu heç bir şey olmadığını söylədi və məni həvəsləndirdi. Beləcə yola düşdük. Həsənağa atın belində olarkən çox dik yamaclardan qalxırdıq. Mən yıxılmayım deyə onun bərk qucaqlamışdım, hətta onu çimdikəyirdim. O, isə belə elədiyimi görüb atı lap bərk çapmağa başladı. Mən də daha ondan bərk tutdum və həmişə olduğu kimi ona güvəndim. Təxmini 40-45 dəqiqə belə yol getdik. Yay fəsli olmasına baxmayaraq biz at belində yuxarı qalxdıqca hava sərinləşməyə başlamışdı. Həsənağa havanın sərinləşməyə başladığını və üşüdüyümü deyəndə həmişəki cavablarından birini verdi və dedi "Kişisən əə, nə üşümək" Post çox uzaqda idi. Orada ən yaxşı vasitə elə at idi. Həsənağanın postuna çatanda onun əsgərləri və iş yoldaşları ilə tanış oldum. Orada hər kəsin Həsənağaya necə dəyər verdiyini, ona necə hörmət etdiklərinə şahid oldum. Əsgərlərin öz komandirlərini necə sevdiyini gördüm. Bunu hər insan qazana bilmir. Həsənağanın iş otağını düzəltdik. Aldığım hər şeyi bəyəndi, amma, deyəsən, kompüterin qırmızı olması onu bir az əsəbləşdirmişdi. Ümumiyyətlə, mən onun üçün bir çox şeylər seçəndə rəng problemi yaşamışıq. Otağı düzəldəndən sonra Həsənağa mənə səngərləri gəzdirdi. Orada əsgərlər üçün yaratdığı şəraiti gördüm. Əsgərlər deyirdi ki, başqa postlarda belə şərait yoxdur. Bunu bizim üçün komandir (Həsənağa) düzəldib. Düşmənlə çox yaxın məsafədə xidmət edirdi. Hətta mənə binokl verib, düşmən tərəfə baxmağımı söylədi. Binokl ilə baxanda düşmənin postlarını, maşınlarını gördüm.

Mənim üçün çox maraqlı an idi. Sabahısı gün Həsənağanın bölük kamandiri Vəfalı komandir ilə tanış oldum. Çox gülərüz komandir idi. Məni yaxşı qarşıladı və zarafatlaşdıq. Həsənağa, Vəfalı komandir və əsgərlər bir yerdə oturub yemək yedik. Gecə yatanda Həsənağanın bir neçə dəfə yatdığı yerdən qalxıb harasa getdiyini gördüm. Onun işinin necə ağır, məsuliyyətli iş olduğunu o zaman daha yaxşı anladım. Hətta mənim oradakı 2-ci günümdə gecə vaxtı düşmən atəşkəsi də pozmuşdu. Həmin an Həsənağa dərhal bayıra çıxdı. Mənim içəridə qalmağımı söylədi. Bir neçə saat sonra qayıdıb, hər şeyin yaxşı olduğunu və Həsənağa mənə Vəfalı komandirin postuna gedəcəyimizi dedi. Post uzaqda olduğu üçün ora da at ilə getməli idik. Bu dəfə mənim üçün ən böyük fərq, ata tək başına minməli olduğum idi. Həsənağa özü qəhvəyi ata mindi, mən də bir təhər ağ rəngli sakit ata. Bir müddət gedəndən sonra artıq ətrafda dağlardan və dumandan başqa heç bir şey görünmürdü. Nə Həsənağanın, nə də ki Vəfalı komandirin postu görünürdü. Hətta mən hansı tərəfin düşmən, hansı tərəfin bizim tərəf olduğunu da anlamırdım. Atlarla yanbayan gedən zaman Həsənağa birdən atı sürətli çapmağa başladı. Atı elə çapırdı ki, mən də ona baxıb ayaq uydurmağa çalışırdım, amma onunla eyni tempdə gedə bilmirdim. Artıq geridə qalmağa başlamışdım. Həsənağa isə o qədər uzaqlaşmışdı ki, gözdən itmişdi. Mən isə atın ümidinə qalmışdım. At yolu tanıyırdısa, posta gedib çata bilcəkdim, amma tanımırdısa hara gedəcəyimi özüm də bilmirdim. At özü məni posta tərəf aparırdı. Sonra Həsənağanın geri qayıtdığını gördüm. Beləliklə, Vəfalı komandirin postuna çatdıq.



Orada qarşılaşdığım mənzərə isə tamam başqa mənzərə idi. Elə bil dünənki Vəfalı komandir gedib, onun yerinə başqa insan gəlmişdi. Dünənki gülər üzündən əsər-əlamət yox idi, çox qəzəbli idi. Ora çatar-çatmaz Həsənağa ilə deyinməyə başladı. Ona iradlarını söyləyirdi. Əsgərlərinə qışqıra əmrlər verirdi. Mən özümü itirmişdim və hara düşdüyümdən xəbərim belə yox idi. Bacardıqca Həsənağadan və Vəfalı komandirdən uzaq durmağa çalışırdım. Daha sonra Vəfalı komandir Həsənağanı otağına çağırdı və onları otaqdan birgə gülərək çıxdıqlarını gördüm. Əvvəl nə baş verdiyini başa düşmədim, sonra mənə bunların bir zarafat olduğunu dediler. Bura gələn bir neçə insana da belə zarafatlar elədiklərini dediler. Bu zarafatı bir gün qabaq planlaşdırıblar. Əslində belə zarafat etdiyinə görə ona əsəbləşməli idim, amma həmin an ancaq sevinirdim. Sonra hər ikisi də mənə yaşatdıqları o gərgin anların əvəzini artıqlaması ilə çıxdılar. Onlarla birgə çox gözəl vaxt keçirdik. Bir yerde çox yerlərə getdik, başqa postları da gəzdik. Orada çox maraqlı günlər yaşadım. İndi fikirləşirəm ki, orada keçirdiyim 3-4 gün necə də mənim üçün dəyərli günlər imiş.

Həsənağa lider ruhlu bir insan idi. Onu anlatmağa sözlər kifayət etmir etməyəcək də. Sadəcə bunu deyə bilərəm ki, onun həyatında nə yaxşı ki, bizim də bir mövqeyimiz var.

Hal-hazırda mən 2-3 həftə sonra hərbi xidmətə yollanacam. Orada böyük fəxr və qürur hissi ilə hərkəsə deyəcəm "Mən Həsənağanın dayısı oğluyam". (Hər nə qədər bizim münasibətimiz dayı oğlu-bibi oğlu münasibətindən daha artıq bir münasibət olsa da)

## AĞAYEV SÖHBƏT

(Lənkəran şəhər 9 saylı tam orta məktəbin direktoru)

Bütün insanlarda vətənpərvərlik hissləri bu və ya digər miqdarda birində az, digərində çox olur. Lakin canını vətən yolunda fəda edənlərdə vətənpərvərlik hissləri ölçüyəgəlməz dərəcədə çox olur. Hərbi təhsil almış şəxslərdə isə artıq bu hisslər hərbi-vətənpərvərlik hissi şəklində ifadə olunur. Belə şəxslər üçün həmin hisslər məqsədə, hədəfə və uca məqama aparan yola çevrilir. O, şəxslərdən biri məktəbimizin Şəhidlər ailəsinin sonbeşiyi Abdullazadə Həsənağa Şakir oğludur. Həsənağa 9 saylı məktəbdə səkkizinci sinfi bitirdikdən sonra öz arzusu ilə təhsilini C.Naxçıvanski adına hərbi liseydə davam etmişdir. Onun hərbi təmayülə yönəlməsində məktəbimizdə o vaxt mövcud olan hərbi-vətənpərvərlik yönümlü istiqamətlər mühüm rol oynamışdır. Məktəbimizdə o vaxt məktəb şəhidləri və respublikamızın bütün Milli Qəhrəmanları üçün çox yüksək səviyyədə guşələr yaratmışdıq. Həmin guşələr indi də fəaliyyət göstərirlər. Bunlarla yanaşı məktəbdə "Şahin", "Cəsurlar" və "Gənc sərhədçilər" hərbi-idman oyunları komandaları var idi. Müxtəlif yaş qrupları üzrə şagirdlər həmin komandalara cəlb edilmişdilər. Uşaqlar üçün həmin komandalarda iştirak etmək çox maraqlı idi. Həsənağa "Cəsurlar" komandasında iştirak edirdi. Bu komandalar məktəbdaxili, məktəblərarası, şəhərlərarası, rayonlararası, zona və final respublika yarışlarında yüksək nəticələr əldə edirdilər. Məktəbin hərbi-idman oyunları komandaları ənənəvi olaraq final mərhələsində iştirak etmək hüququnu tez-tez qazanaraq



hər il müntəzəm olaraq Bakı şəhərinə getməli olurdular. Final yarışları C.Naxçıvanski adına hərbi liseydə keçirilirdi. 2007-ci ildə Həsənağa "Cəsurlar" komandasının tərkibində Bakı şəhərinə getməli olmuşdu. Komandalar ilə mən də Bakı şəhərinə getməli olurdum. Bu səfərlər 2-3 gün davam edirdi. Səfərlər zamanı şagirdlərdən demək olar ki, ayrılmazdım. Daim onların fəaliyyətinə nəzarət edərək onlarla təmasda olurdum. Oyunlar zamanı Həsənağanın rəqabət yönümlülüyü, qələbəyə can atması, yoldaşlarını qələbəyə motivasiya etməsini xatırlayıram. Bakıya sonrakı səfərlərimizdə artıq Həsənağa C.Naxçıvanski adına hərbi liseyin şagirdi, kursantı kimi komandamızı qarşılayırdı. O, tək olmurdu, həmin vaxt məktəbimizin bir neçə, təqribən 8-10 nəfər məzunu liseyin ayrı-ayrı siniflərində, kurslarında oxuyurdular. Onlar hamısı komandamıza azarkeşlik edirdilər. Belə məqamda Həsənağa özünü ev yiyəsi kimi aparır, bizə qarşı qonaqpərvərlik göstərməyə çox meyl edirdi. Mən bir müəllim kimi həmin məzunlarımızın C.Naxçıvanski adına hərbi liseyindəki təhsili ilə maraqlanırdım. Orada təhsil almaq çox çətin idi, iradə və dözüm tələb edirdi. Bəzi uşaqlar bu çətinliklərə dözməyib oradan qaçırdı. Bu mənada onlarla hərbi təhsilin çətinliyi haqqında söhbətlər edir, tövsiyyələr verirdik. Həsənağa belə məqamlarda məni diqqətlə dinləyir və həmin tövsiyyələri layiqincə yerinə yetirməyə söz verirdi.

Məktəbimizdə Həsənağaya dərs deməmişəm. Lakin məktəb və sinif tədbirlərində çox fəal iştirakından onun yaxşı oxumağını xatırlayıram. Uşaqlarda bəzi diqqəti cəlb edən elə cizgilər, sözlər, rəftar-davranış elementləri olur ki, onlar müəllimin yaddaşında həkk olunur. Həsənağada olan

özünəməxsus gülərüzlülük, təbəssüm, diqqətlilik, qeyrətlilik, motivasiya bacarığı, ruhlandırmaq və yönəltmək mənim üçün yaddaşıma həkk olunan xoş xatirələrdir.

Həsənağanın şəhidlik zirvəsinə ucalması mənəvi cəhətdən çox qürurverici olsa da, fiziki baxımından çox üzücü və çox kövrək hadisədir. O, ailənin yeganə övladı idi, yenicə evlənmişdi. Onun evlənməsi ilə müharibənin başlanması arasında vaxt məsafəsi çox az oldu.

Həsənağanın yoxluğu hamımız üçün çox ağırdır. Balamızın əziz xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaqdır! Onun yolu, onun ləyaqəti gənc nəsl üçün bir tərbiyə məktəbi olacaq! Bütün şəhidlər kimi o, təkcə valideynlərinə, yaxınlarına, müəllimlərinə və doğmalarına deyil, həm də bütöv Azərbaycan xalqına məxsusdur!



## MƏMMƏDOVA ELİZADƏ

(direktor müavini)

1993-cu ilin baharında Abdulayevlər ailəsində bir oğul övladı anadan oldu. Ona Həsənağa adı qoyuldu. Həsənağa öz gəlişi ilə ailəyə xoşbəxtlik, sevinc gətirdi, lakin Səmilə ana, Şakir ata bilmirdilər ki, Həsənağa onların birinci və sonuncu övladı olacaq. 1999-cu ildə Səmilə ana bütün xoşbəxt analar kimi Həsənağanın əlindən tutub ilk dəfə məktəbə gətirdi. Həsənağa məktəbə gəldiyi gündən hamının diqqətini çəkən bir şagird oldu. Sinifdə yoldaşları ilə mehriban, səmimi və öz zehni qabiliyyəti ilə fərqlənən bir şagird idi. Mən tez-tez siniflərdə olduğum üçün görürdüm ki, Həsənağa verilən suallara özü cavab vermək istəyən və cavabından çox razı qalan bir şagird kimi müəllimin diqqətini özündə cəmləşdirirdi. Məktəbdə keçirilən tədbirdə Həsənağa çox yüksək səviyyədə iştirak edirdi. Qəribəsi budur ki, məktəbin şərəf lövhəsində Həsənağanın başı üzərində "Əsgər marşı" sözü yazılmışdı.

Həsənağa mənim qohumum olduğu üçün tez-tez bizim evə gəlib ingilis dili dərsinə hazırlaşardı. Həsənağa ilə üzbəüz oturanda həmişə məni bir sual təəcübləndirirdi. Görəsən, Həsənağanın gözlərində nisgil və baxışlarındakı həsrət haradan yaranmışdı? O ala gözlər həmişə narahat idi. Hələ kiçik yaşlarından Həsənağa özü kiçik olsa da, məktəb tədbirlərində vətən, ana, torpaq kimi böyük şeirlər deməyi xoşlayırdı. Elə buna görə də Həsənağadakı bu sevgi onun yolunu 2007-ci ildə hərbi liseyə gətirib çıxartdı. Hərbi liseydə dərslərin çox çətin olduğunu bilməsinə baxmayaraq Həsənağa bu yolu seçdi. O, Vətənin ağır günlərində vətəni

qorumağa gedən oğullardan biri oldu. Həsənağa öz torpağı, vətəni uğrunda mərdliklə döyüşdü. Qəlbində vətən, ana, torpaq sevgisini cəmləşdirib şahid olduğu hadisələri görərək şəhidlik zirvəsinə ucaldı. Ondan atası, anası və öz canı qədər sevdiyi həyat yoldaşına heç bir xatirə qalmadı. Yalnız bir ad qaldı: vətən oğlu, vətən qəhrəmanı... Torpaqlarımızın azad olunması uğrunda öz qanını torpaqla yuyan Həsənağa indi torpaqda rahat uyuyur. Rahat yat, mənim qəhrəman, fədakar, mübariz, əzəmətli oğlum! Sən heç vaxt qəlblərdən silinməyəcəksən! Sən həmişə gənclərimizə örnək olacaqsan!



# MƏMMƏDOVA MƏSUMƏ

(Həsənağanın ibtidai sinif müəllimi)

28 illik qısa ömrünə şərəfli bir tarix yazan, zəfərə imza atan əziz, sevimli şagirdim haqqında xatirələrim çoxdur. Bu xatirələri qeydə almaq mənim üçün çox ağır olsa da, bir o qədər də şərəflidir. Çünki mən mətin, iradəli, vətənpərvər, əyilməz, cəsur, vətənin hər qarışını öz nəfəsindən üstün tutan qəhrəman Həsənağam haqqında yazıram və bununla qürür duyuram. Çətin də olsa ürək ağrısı, göz yaşı içində xatirələrimi qeydə aldım. I sinifə qəbulu zamanı diqqətimi anasının əlindən tutub ətrafa baxan iri gözlü, dərin baxışlı, nur üzlü bir uşaq cəlb etdi. Bir azdan uşaq mənə yaxınlaşıb utanacaq səslə salamlaşdı. Mən onu qucaqlayıb saçını oxşadım. Sonralar o mənim ən çox sevdiyim, hörmət bəslədiyim, fəxr etdiyim şagirdim oldu. Sinfimdə fəal şagird çox idi. Lakin Həsənağa hazırcavablığı, dərsə hazırlığı, mədəni davranışı, istiqanlılığı, dərin düşüncəsi, vətənə sevgisi ilə hamıdan seçilirdi. Yoldaşlarını sevən, özünü sevdirən, diqqətli və qayğıkeş idi. Yoldaşlarından öz köməyini əsirgəməzdi. Mülayim təbiəti, diqqətliliyi, nümunəvi davranışı, mükəmməl zəkası ilə həmişə seçilərdi. Nəzakəti, qayğıkeşliyi ilə həmişə diqqət mərkəzində olardı. Beləcə nümunəvi addımlarla irəlilədi. Üzündəki məsumluq, gözlərində parlayan paklıq, mərhəmət daim onu izlədi!

IV sinifdə açıq dərsimiz var idi. Dərsdə məktəb direktoru və iyirmiyə yaxın müəllim iştirak edirdi. Həsənağa dərsdə hazır cavablığı, müstəqil fikir yürütmə bacarığı ilə daha çox seçilirdi. Məktəbin direktoru Söhbət müəllim Həsənağanı xüsusi vurğulayırdı. Hətta mənə dedi ki, bu uşaq gələcəyin

layiqli vətəndaşı olacaq. Sonra uşaqlara təşəkkür edib sağ ollaşdı, Həsənağanın başını sığallayıb, dedi:

- Belə davam et!

Ümumiyyətlə, Həsənağa məktəbin bütün tədbirlərində iştirak edirdi. Dəfələrlə şeir müsabiqəsinin qalibi olmuşdu. Bilik yarışlarında, inşa müsabiqəsində iştirak edir, həmişə yüksək nəticələr əldə edirdi. Onun şəkilləri məktəbin foyesini bəzəyirdi.

Həsənağa o qədər həssas uşaq idi ki, sinifdə tənəffüs zamanı uşaqlar yemək yeyərdilər. Kimin yeməyi olmasaydı, o, son tikəsini də onlarla paylaşardı.

Səmilə ana da ona qarşı çox tələbkar idi. Mən onu həmişə tərifləyəndə "yox, müəllimə mən razı deyiləm. O daha çox çalışmalıdır", - deyirdi. Valideynləri onun təhsilini, tərbiyəsini daima nəzarətdə saxlayardı. Anası onu çox zövqlə, səliqəli geyindirərdi. Mən onun səliqəsini həmişə yoldaşlarına nümunə göstərərdim.

Dərs ləvazimatları həmişə yerində və səliqəli olardı. Yoldaşlarına həmişə örnək idi. Ona bir tapşırıq verəndə "baş üstə, müəllimə" deyib sevə-sevə icra edirdi.

Ailənin yeganə övladı olmasına baxmayaraq ərköyün deyildi. Valideynlərindən çox çəkinərdi, xüsusən də anasından. Mən dəfələrlə Səmilə anaya, Şakir ataya belə nümunəvi, tərbiyəli uşaq böyütmələrinə görə təşəkkür etmişdim.

Yadımdadır, IV sinifdə buraxılış zamanı vinetka üçün şəkil çəkdirdik. O zaman müəllimə də bir vinetka verilirdi. Mən fotoqrafdan xahiş etdim ki, mənə Həsənağanın vinetkasından versin. O, vinetka indi də mənim yazı



stolumun üzərindədir. Çünki Həsənağa mənim ürəyimdə məskən salmış istəkli, əziz şagirdim idi. Mən onu övladım kimi sevirdim. Anasına deyirdim ki, dərs prosesi olmasa idi, mən onu hər gün qucaqlayıb bağrıma basardım. Bu sevgini Həsənağa körpə qəlbi, məsum çöhrəsi, yüksək hazırlığı ilə qazanmışdı.

Həsənağa böyüdü. Vaxtı ilə çox hörmətli, ağsaçlı Söhbət müəllimin onun haqqında dediklərini doğrultdu. Vətənin layiqli övladı oldu. Sinəsini sipər edib, Vətənin azadlığı uğrunda canını qurban verdi. Ölümü ilə ölümsüzlüyə qovuşdu. O, bizim qürur yerimiz, fəxarət dünyamız, kədərimiz, göz yaşımız, ürək ağrımız oldu!!!

Həyatına ömrünün bahar çağında şəhadəti ilə vida edən, qəhrəmanlıq, zəfər tarixini bəzəyən oğul! Zülmətləri yararaq elini işıqlı sabaha aparan, azadlığın heykəl daşını əlləri ilə bərkidən, igidliyi, mərdliyi özünə amal seçən, vətən harayına, şücaətinə səs verən, son sözü vətən aldığım nəfəsdən üstündür deyən, düşmən qarşısını salqaya kimi kəsən oğul! Kəlmələr yetmir səni beyinlərdə canlandırmağa. Məqamı ucalardan uca olan, əziz şagirdim - Həsənağam!

## KƏRİMOVA PƏRVANƏ

(Həsənağanın sinif rəhbəri və riyaziyyat müəlliməsi)

Həsənağa, mənim heç vaxt unuda bilməyəcəyim, yaddaşlara həkk olunan, ürəklərdə yer salan şagirdim! Bir gün Həsənağa haqqında belə bir yazı yazacağımı ağlıma gətirməzdim. Həsənağanın riyaziyyat müəllimi, sinif rəhbəri olmuşam. Həsənağa sinif nümayəndəsi idi. Sinifin ən yaxşı oxuyan şagirdlərindən biri, əlaçı idi. İri, dərin və mənalı gözləri, ağıllı baxışları vardı. Elə bil gözləri danışanda çöhrəsinə təbəssüm həkk olunmuşdu. Tərbiyyəsi qüsursuz, davranışı nöqsansız idi. Ona tapşırılan tapşırığı sevərək canla-başla yerinə yetirərdi. Birinciliyi sevərdi və buna layiq olmağa da can atardı. Özünü sevdirməyi bacarırdı. Nümunəvi şagird idi. Düz və dürüst idi. Evin tək övladı olmasına baxmayaraq, ərköyünlüyünü heç görmədim. Onda ailədən gələn möhkəm nizam-intizamlılıq vardı və özü də çox vətənpərvər idi. Belə bir vətənpərvər, qəhrəman övladı tərbiyə etdiyinə və yetişdirdiyinə görə valideynlərinə təşəkkür edirəm. Valideynlərinə qürur yaşadan övlad idi. Gələcəyin belə bir qəhrəmanına dərs dediyim üçün, tanıdığım üçün həm qürur duyuram, həm də o dəyərli insanı itirdiyimiz üçün çox üzülürəm. Kaş onun haqqında keçmiş zamanda danışmamaydıq.

Həsənağa vətəni həyatından və ailəsindən çox sevdi. O, sonda şəhid olaraq vətən torpağına qarışdı. Şəhidlər ölmür! Onlar millətin yaddaşında, qəlbində, tarixində yaşayırlar.



## ƏHMƏDOVA GÜNAY

(Həsənağanın müəllimləsi)

Həsənağa haqqında keçmişdə danışmaq mənə çox çətindir. 2000-ci il sentyabr ayının 1-də universiteti bitirib, ilk dəfə müəllim kimi sinifə daxil oldum. Bu 2a sinfi idi. İlk olaraq şagirdlərlə tanış oldum, adlarını soruşdum. Birinci partada sarışın bir oğlan, yanında isə qarayanız bir qız oturmuşdu. İndiki kimi yadımdadır. Adlarını soruşanda məlum oldu ki, oğlanın adı Həsənağa, qızın adı isə Nurlanədir. 1 il ərzində 5 fənndən onlara dərs dedim. Pedaqoji fəaliyyətimin ilk addımlarını onlarla birgə atdım. Bilən bilir, tanıyan tanıyır ki, mən dərs dediyim heç bir şagirdimi unutmuram, illər keçdikcə onlarla əlaqəmi kəsmirəm. 44 günlük müharibədə Həsənağanın itkin düşdüyü ilə bağlı xəbəri də elə əvvəlki şagirdlərimdən aldım. Aldığım xəbər məni sarsıtsa da, bir müddət bu fikri özümə yaxın buraxmadım. Yox, bu ola bilməz, harada olsa, gəlib çıxar... Heç kimdən də bir şey soruşmağa ürək etmirdim. Həsənağanın nurlu üzü, sarışın siması hər zaman xatirimdədir. Həsənağa dərsə bir gün də olsa hazırlıqsız gəlmirdi. Təhsil pillələrini uğurla başa vurmasında anasının çox böyük rolu vardı. Ana hər zaman onun dərslərinə diqqət yetirir, tapşırıqlarının düzgün icra olunmasına yardımçı olurdu. Anası Həsənağanı müsbət keyfiyyətli bir şəxsiyyət kimi yetişdirdi. Həsənağa həmişə tərbiyyəsi, təhsili ilə seçilirdi. O, Vətənin azadlığı uğrunda canını fəda etdi. Qanı ilə adını tarixin qəhrəmanlıq salnaməsinə yazdı.

## MƏMMƏDOVA ƏSMƏR

(həyat bilgisi müəllimməsi)

Bu gün Həsənağanın yoxluğundan danışmaq mənə həm çətin, həm də şərəflidir. Çünki Həsənağa adına, elinə, obasına layiqli bir oğul oldu. Mən Həsənağaya ibtidai sinifdə dərs demişəm. Doğrudur, Həsənağa mənim qohumum olub. Lakin onu qohum kimi yox, əsl şagird kimi çox sevirdim. İlk dərs dediyim sinfin seçilən şagirdi Həsənağa öz nümunəvi hərəkətləri ilə çox fərqlənirdi. Həsənağa dərslərini əla qiymətlərlə oxuyurdu. İti ağlı, fərqli düşüncəsi ilə hələ uşaq ikən bizim qəlbimizdə çox gözəl bir iz qoydu. Onun iri gözləri, qızaran yanaqları hələ də gözümün önündən getmir. Birinci partada oturan Həsənağa hər suala əl qaldırıb, cavab verməyə tələsən şagird bu gün ölümün gözünə belə dik baxmaqdan çəkinmədi. Bir müəllim kimi bilirdim ki, onun gələcəyi çox gözəl olacaq. Amma o vaxt düşünmürdüm ki, mən vətənimin mərd, igid, qəhrəmanına dərs deyirəm. O igid ki, evinin tək, yeganə övladı olmağına baxmayaraq, öz qanı ilə şanlı tarix yazan qəhrəman oğullardan biri olacaq. Bu sözləri yazarkən ağlamamaq əlimdə deyildi. Göz yaşları ilə yazıram bu sətrləri. Hələ də gözümün önündə uşaq qalan şir ürəkli balamız, bu gün şəhidlik zirvəsinə ucaldı.

Vətəni hər kəsdən üstün tutan qəhrəman igidimiz ruhun şad olsun. Çünki sənin kimi oğulların sayəsində Vətənin işğalda olan torpaqları azad oldu. Məzarında rahat yat, ən böyük arzun yerinə yetib. Sən bir ata, ananın övladı yox, böyük bir elin övladı oldun. Dünyada səndən nişanə yalnız qəhrəman adın qaldı. Adın qəlbimizdə hər zaman yaşayacaq, igid Həsənağamız!



## CƏFƏROV İQBAL

(sinif yoldaşı)

1-ci sinifdən 8-ci sinifə qədər bir yerdə oxumuşuq. Yadımda qalan Həsənağanın anasını nə qədər çox istəməyi idi. Həsənağa da, mən də evin tək uşaqlarıyıq. Bəlkə də, bu bizi anamıza daha bağlı edib.

Bir dəfə evdən bir az uzaqda Həsənağa və mən evə qayıdırdıq. 4-cü sinifdə oxuyanda yanımızdan təcili tibbi yardım maşını keçdi. Mən fikir vermədim, o isə dedi ki, bəlkə, analarımıza bir şey olub, gəl ayaqla evə qaçaq. Necə qaçırdıqsa, təssəvür edə bilməzsiniz. Amma o qaça-qaça "analarımıza bir şey olsa, nə edərik?" - deməsi... İndi anlayıram ki, anasını nə qədər sevib. Hətta maşınların arasında qaçanda belə anasından danışırdı.

Oktyabr ayında Həsənağa yuxuma gəlib, gülümsəyirdi. Bir toy məclisində idik. Mənimlə görüşüb, məndən incidiyini dedi. Səbəbini soruşdum. Dedi: "Axı mən şəhid olmuşam. Niyə namazlarında mənə salavat göndərmirsən?" Dedim: "Yanımdasan, necə şəhid olmusan?" Əlimdən tutdu, məni özü ilə apardı. Meşəlik bir yeri göstərib, oranın Kəlbəcər olduğunu dedi. Yavaş-yavaş irəlilədi, o qədər gözəl yerlər idi ki, söz ilə təsəvvür edə bilmirəm. Hər yer buludlu, dumanlı olmağına baxmayaraq, Həsənağa irəlilədikcə hər yer gözəlləşirdi. Hər arxaya baxanda gülümsəyir, mənim yerim buradır deyirdi. Arxası ilə qaçsam da sanki onun getdiyi yer mənə yad idi. Həsənağa təbbəsüm edə-edə o yolda getdi. Mən bu yuxunu danışmağa qorxdum, çünki buna inanmırdım. Ona gələcəyinə inanır, ümid edirdim. Hələ öz-özümü danladım ki, bu nə yuxudur, görəsən?

## ƏLİZADƏ ÜLVİ

(sinif yoldaşı)

5-ci sinifdə oxuyurduq. Həyatımızın ən qayğısız, ən xoşbəxt illəri idi. Biz üç dost idik; mən, Həsənağa, İqbal. Mən öz arzum olmadan musiqi məktəbinə qəbul olmuşdum, təbii ki, bu anamın arzusu idi və mən anama etiraz etməmişdim. Piano dərsi alırdım, amma tez-tez ən yaxın dostum Həsənağa ilə dərdləşəndə musiqi məktəbinə getmək istəmədiyimi, heç xoşum gəlmədiyini ona bildirmişdim. Məni hər gün musiqi məktəbinə anam aparırdı. Anam eyni zamanda bizim ədəbiyyat müəllimimiz idi. Növbəti gün yenə də musiqi məktəbinə dərsə getməli idim və dərsə hazırlaşmamışdım. Bunu dostlarımla bölüşəndə Həsənağa ilə qərara gəldik ki, bir yolunu tapıb dərsə yox, şəhərə gəzməyə gedək. Bu bizim üçün çox gözəl ideya idi, amma mən bunu evdə desə idim, mənə etiraz edəcəkdilər. Fikirləşib, bir yol tapdım. Anam ilə danışdım ki, dərsə hazırlaşmışam, yolu da özüm tanıyıram. O mənə Həsənağa ilə getməyə icazə versin. Biz Həsənağa ilə yaşıd idik. Məktəbdə bir sinifdə oxuyurduq. Həsənağa təxminən 6 ay məndən böyük idi, çox maraqlı idi ki, anam həmişə Həsənağa mənim böyük qardaşımmış kimi onunla davranırdı və mənim onunla harasa getməyimə heç vaxt etiraz etmirdi. Mən hiss edirdim ki, anam Həsənağaya çox etibar edirdi. Bu hərdən xətrimə dəyirdi, amma zamanla mən də onunla böyük qardaşım imiş kimi davranırdım. Çünki Həsənağanın da çox qəribə yanaşması var idi. O bizə əsil qardaş kimi yanaşırdı. Daima bir yerdə dərslərə hazırlaşır, bir yerdə gəzir, dərdləşir, oynayırdıq, yəni bir yerdə vaxt keçirməyi çox xoşlayırdıq. Növbəti gün anam mənə heç



gözləmədiyim halda icazə verdi. Mən çox xoşbəxt idim. Sevincimin həddi-hüdudu yox idi. Not dəftərimi götürüb, dostlarımla görüşüb, dairəvi 1 adlanan avtobusa əyləşib yola düşdük. Oxuduğum 2 nömrəli musiqi məktəbinə getdik. Müəllimənə dərsə hazır olmadığımı bildirdim. İndi dəqiq xatırlamıram dərsin vaxtını dəyişdik, yoxsa keçmədik. Necəsə hər halda dərs olmadı. Çox sevinirdik, çünki demək olar ki, bütün planlarımız alınmışdı. Mən, Həsənağa və İqbal üç dost bütün dünya sanki ayaqlarımızın altında idi və xəyallarımızdakı gəzintini özümüz üçün planlaşdırırdıq. Haradan başlayaq deyə düşündük. İlk addım olaraq xan evi kimi tanınan Lənkəran xan evi muzeyinə yollandıq. Muzeyə daxil olanda çox əsrarəngiz mənzərə ilə qarşılaşdıq. Hər element, hər detal, keçmişi xatırladan hər bir alət bizi o qədər özünə cəlb edirdi ki. Mən xatırlamıram, bəlkə də, valideynlərimlə bərabər bu muzeyə gəlmişdim, amma bu indi ki təəssüratı məndə heç vaxt yaratmamışdı. Çünki mən dostlarımla sərbəst, heç kimin nəzarəti olmadan burada idim və tam azad idim. Özümü, doğrudan da, çox rahat, xoşbəxt hiss edirdim. Bizim üçümüzün də gözündə sevinc işığı var idi. Üç dost bu muzeydən çıxıb Həzi Aslanovun ev muzeyinə getdik. Bu haqda çox eşitmişdik, orada olmağı arzulayırdıq və təəssüf ki, heç vaxt orada olmamışdıq. Ona görə çox həyəcanlanırdım, hətta ürəyimin çırpınmasını hiss edirdim. Biz muzeyə daxil olduq. Nə yaxşı ki, bizi buraxdılar. Əvvəlcə bir az tərəddüd etdilər, hansı məktəbdən gəldiyimizi soruşdular və sonra bizi muzeyə buraxdılar. Burada böyük qəhrəmanın hərbi geyimləri, onun hərbi həyatını əks etdirən bütün alətlər şəkilləri, şüşənin arxasından gördüyümüz hər

bir əşyası bizə bir tarixi canlandırırdı. Bəlkə də, indi o dövrdə yaşadığım kimi o hissləri təsəvvür edə bilmirəm. Bəlkə də, zaman o günün xatirələrini olduğu kimi canlandırmaq fürsəti vermir, amma, doğurdan da, həmin günün xatirələrini dilə gətirmək çox böyük hisslərdir. Bu muzeydən çıxıb dairəvi bir avtobusun stansiyasına gəldik. Çox xoşbəxt idik. Missiamızı yerinə yetirmiş, arzularımızı reallaşdırmışdıq və stansiyaya elə bir vaxtda gəlmişdik ki, tam dərsin bitəcəyi vaxtda avtobusa minəcəkdik və anam bizi qarşılayacaqdı. Tam lazım olan vaxtda bu avtobus bizi ünvana çatdırmalı idi. Yerimizi rahatladıq, oturduq və birdən gözüm əlimə sataşdı ki, əlim boşdur. Həmin an keçirdiyim narahatlıq, qorxu, o hisslər bir-birinə qarışdı və mən onu necə ifadə edəcəyimi bilmədim. Çox dəhşətli baxışlarla Həsənağaya baxıb, not dəftərimi unutduğumu ona bildirdim. O da mənim kimi həyəcanlandı, amma yenə də bir böyük qardaş ədası ilə "qorxma, heç bir narahatlıq yoxdur, biz dərhal gedib onu götürərik", - dedi. Mən onu musiqi məktəbində unutmuşdum və çox təəssüf ki, musiqi məktəbi olduğumuz stansiyadan çox uzaqda yerləşirdi. Biz İqbalı stansiyada saxladıq ki, bizi orada gözləsin. İkimiz dərhal avtobusdan enib, musiqi məktəbinə tərəf çox sürətlə qaçmağa başladıq. Çox böyük bir vaxt itirdik. Not dəftərini orada unutmuşdum, onu götürdüm. Bir az rahatladım və dərhal da tər içində geri qaçmağa başladıq ki, avtobusa çataq. Təəssüf ki, biz stansiyaya çatanda artıq avtobus getmişdi. İqbal da avtobusdan enib qorxaraq bizi kənarda gözləyirdi. Avtobus getmiş, biz isə ona çata bilməmişdik. Mən də qorxmağa başladım, çünki məhz bu saatda gedəcək avtobusun qarşısında bizi gözləyəcəkdilər.



Orada olmayacağım təqdirdə nə baş verəcəyini artıq təsəvvür edirdim, qorxu içində növbəti avtobusun gəlməyini gözləyirdik. Amma bu vaxt çox dəhşətli bir mənzərə gördük. Anam avtobusun gəldiyini və mənim orada olmadığımı görüb, dərhal bir taksiyə əyləşib, mənim təhsil aldığım musiqi məktəbinə gedir və məni maraqlanır. Orada ona bildirirlər ki, mən bu gün dərsdə iştirak etməmişəm. Bu çox dəhşətli bir hal idi. Bizi axtarır və geri qayıdır. Biz isə növbəti avtobusa minib gəlib enəndə artıq anamı qarşımızda gördüm. O təkcə özü narahat deyildi. Həm İqbalın anası, həm Həsənağanın anası da çox narahat olmuşdu. Yəni valideynlər artıq bizi danlayır, bugünki günümüz, bütün o sevincimiz, xoşbəxtliyimiz, hər şey alt üst olmuşdu. Ən önəmlisi o idi ki, biz artıq valideynlərimizin nəzərində onların yalançı övladları idik və artıq bizə etibar etməyəcəkdilər. Biz bu etibarı itirmişdik. Amma bu gün həmin hadisəni xatırlayanda içimdən çox qəribə bir hisslər keçir. Düşünürəm, nə yaxşı ki, biz həmin o günü necə deyim, oğurluya bildik, əldə edə bildik. Dostlarımızla ilk belə keçirdiyimiz gün idi. Sonrakı illər Həsənağa hərbi məktəbdə oxuyurdu və biz çox az-az görüşürdük. Amma hər dəfə görüşəndə o günü xatırlayırdıq və ondan sora biz daha gözəl günlər keçirtdik. Çox təəssüf ki, bu gün Həsənağa aramızda yoxdur və mən Həsənağa simasında qardaşımı itirdim. Bu mənim üçün çox ağırdır. Bunu qəbul etmək də çox ağırdır. Mən əminəm ki, nə qədər ki, biz varıq, Həsənağa bizimlə bərabər olacaq, yaşayacaq və o bir böyük qardaş kimi ruhu ilə bizə dəstək olacaq. Mən qəhrəman qardaşımızın qarşısında baş əyirəm və onun valideynlərinin yanında olmağı daima özümə bir borc bilirəm.

## MƏMİZADƏ KÖNÜL

(sinif yoldaşı)

Mən Həsənağanı hələ biz birinci sinifə getməmişdən öncə tanıyırdım. Biz uzaq qohumuq, mən balaca vaxtı onların evində çox olmuşam. Həmişə Həsənağa ilə bir yerdə oynayırdıq. Sonra məktəbdə də eyni sinifdə oxuduq. 8 il mənim yaddaşımda Həsənağa çox mehriban, ağıllı, bilikli uşaq kimi qalıb. Biz həmişə məktəbdən evə uşaqlarla bir yerdə gəlir, rus qəbirsanlığına çatanda yolumuz ayrılırdı. Həsənağa o biri tərəfə, mən də uşaqlarla bu biri tərəfə gəlirdim. Yadımdadır, bir dəfə, deyəsən, üçüncü sinifdə oxuyurduq. Evə gələndə rus qəbirsanlığına çatanda başqa heç bir uşaq yox idi. Mən evə necə tək gedəcəyimi bilmirdim, ağlayırdım. Qəbirsanlıqdan çox qorxurdum. Həsənağa məni sakitləşdirdi.

Həsənağa ilə 6-cı sinifdə də Sevinc müəllimənin dərslərində 3-cü sırada 3-cü partada otururduq. Yadımdadır, necə ki Sevinc müəllimə deyirdi: "Uşaqlar, kim lövhəyə gəlir"? Biz də Həsənağa ilə dərs danışmaq üçün dalaşmağa başlayırdıq. Həsənağa çox savadlı, aktiv idi. Həmişə yarışlarda, tədbirlərdə də iştirak edirdi.

Həsənağa hər birimizin xatirində təkcə sinif yoldaşı kimi deyil, yaxşı insan, cəsur vətən oğlu kimi əbədi yaşayacaq.



## İSGƏNDƏRLİ CƏMİL

(şəhid Həsənağanın sinif yoldaşı)

Həsənağa sinfimizin sinif nümayəndəsi və lideri idi. 6-cı sinifdə məktəbdə 5-6-cı siniflər arası dama yarışı keçirilirdi. Mən finala qədər yüksəldim və qalib oldum. Həsənağa mənə çox dəstək oldu və mənə həmişə "sən qalibsən, narahat olma, özünü darıxdırma",- deyirdi və dediyi kimi də oldu. Mən mükafat almağımla bağlı evimizdə yığıncaq keçirdim və Həsənağa başda olmaqla başqa sinif yoldaşlarımı da dəvət etdim. Bu da martın 9-na təsadüf etdi. Sən demə, həmin gün qardaşımın ad günü imiş. Birgə əyləndik, dedik, güldük. Çox gözəl və xoş günlər idi, əziz qardaşımız sinfimizə rəng qatırdı. Hər bir işdə birinci idi. Əsgərlik illərində də həmişə əlaqə saxlayırdı. Yanılmıramsa, bir dəfə 2019-cu ilin may ayı mənə yazdı. Soruşdum: "Qardaşım, haradasan? Neynirsən? Çoxdandır, səni görmürəm". O isə "narahat olma, qardaşım, inşallah yaxınlarda gəlirəm və sizi, uşaqların hamısını bir yerə yığacağam",- dedi və belə də etdi. Bizi ən xoş günündə, toyunda bir araya topladı. Allah qardaşıma rəhmət eləsin!

## MƏMMƏDOV TURAL

(sinif yoldaşı)

Mən Həsənağa ilə 2-ci sinifdən oxumuşam. Öz cəsarətliliyi, mərdliyi ilə seçilən Həsənağanın gözündə heç bir zaman qorxu görməmişəm. Onda hərbiyə maraq lap uşaq vaxtlarından vardı. Biz 5-ci sinifdə oxuyarkən hərbi yarışlarda iştirak edib, uğurlu nəticələr əldə edirdik. Həsənağa ilə Cəmşid Naxçıvanski adına hərbi liseyə birgə hazırlaşmışıq. Ancaq oradakı çətinlikləri görüb, fikrimdən daşındım, Həsənağa isə hərbə marağının yüksək olması səbəbi ilə bu yolu sonuna qədər davam etdirdi. Onda olan hərbiyə marağı mən o zamandan görməyə başladım. Hər tətilə gələndə də mənim hərbiyə marağımı artırmağa kifayət qədər cəhd edirdi. Mən ona söz verdim ki, orta məktəbi bitirəndən sonra ali hərbi məktəbə sənədlərimi verib, bir yerdə kursantlıq oxuyub, mən də onunla çiyin-çiyinə zabit yoldaşı olacağam. Lakin bəzi səbəblərdən dolayı onu edə bilmədim. Həsənağa isə öz fəaliyyətini uğurla davam etdirirdi. Mütəmadi olaraq imkan daxilində telefon görüşləri aparırdıq. Daim hər şeyin qaydasında olduğunu bildirirdi.

Həsənağada hərbiyə sevgi, vətənə sevgi, millətə sevgi hədsiz çox idi. Heç nədən qorxmadan, çəkinmədən "Vətənin hər bir qarış torpağını işğaldan azad edənə kimi vuruşacağıq" şüarı ilə döyüşürdü.

Həsənağanı itirmək bizim üçün çox ağır oldu. Bu itkini, ürək yanğısını hansı sözlə ifadə etsək, çox yetərsiz olar. Hələ də buna inana bilmirik.



## BAŞ LEYTENANT ƏLİYEV MÜŞFİQ

(kursant yoldaşı)

Mənim Həsənağa ilə tanışlığım 2007-ci ilin avqust ayının 25-nə təsadüf edir. C.Naxçıvanski adına hərbi liseyə qəbul olunduqdan sonra məhz bu tarixdə hərb peşəsinə ilk addımlarımızı atmışıq. Siyahıya alınıb, hərbi forma geyindikdən sonra hər bir gənc kursantın üzündən həm sevinc, həm də ailəsindən uzaq düşdüyümüz səbəbindən kədər hisslərini ayırd etmək olurdu. Həsənağanın üzündə olan o məğrurluq, o mərdlik şəhidlik zirvəsinə qalxdığı günə qədər dəyişməmişdi. Elə bu məğrur duruş onu kursantlar arasında da fərqləndirirdi. Bölük komandiri mayor Heybət Şikarov kursantlar arasında rəhbər seçərkən diqqətlə onların gözlərinə baxırdı. Həsənağa o qədər məğrur və qəhrəman kimi davranırdı ki, sanki peşəkar hərbçidir. Beləliklə, Həsənağa Ali Hərbi Məktəbə qədər, eləcə də hərbi məktəbdəki təhsil dövründə kursantlara rəhbərlik etdi. Mənim xoşbəxtliyim Həsənağa ilə birlikdə eyni sinifdə zabit olana qədər 8 il müddətində təhsil almaq və yaxın dost olmaq oldu. Həsənağa atasının və anasının yeganə övladı olmasına baxmayaraq onlardan ayrılıb həyatını vətənə və xalqa xidmət etməyə həsr etməyi seçmişdi. İstər tərbiyyəsi ilə, istər hərbi nizam-intizamı ilə, istərsə də hərbi təhsili ilə fərqlənərək daim komandir və müəllimlərin rəğbətini qazanmışdı. Həsənağa haqqında olan xatirələri bölüşmək bizə onun bütün hərbçi dostlarına ağır gəlir. Bizim bütün xatirələrimiz demək olar ki, uzun illəri əhatə edir. Həsənağa həmişə öz gülüş dolu zarafatları ilə, göstərdiyi qayğılarla, etdiyi şirin söhbətləri

ilə həmişə bizlərin qəlbində yaşayacaq. Həsənağa xidmət etdiyi dövr ərzində həmişə qəhrəman olacağını deyirdi. O dediyini edərək sözünü tutdu, qəhrəman oldu. Həsənağa öz qəhrəmanlığı ilə, qanı ilə digər şəhid qardaşlarımızla birgə tarix yazıb tarixə qovuşdu.



## BAŞ LEYTENANT RÜSTƏMOV FAİQ

(kursant yoldaşı)

Bir il müddətində TTM-də təhsil aldığımız müddətdə Elnur başda olmaqla, Seymur, Arif qardaşla tanış olmuşuq. Onlar bizim həm ən pis günümüzdə, həm də ən yaxşı günümüzdə yanımızda olublar. Bir ailə kimi nə çətinliyimiz olardısa, bir yerdə həll edər, dərdlərimizi bölüşərdik.

Bir gün Novruz bayramı idi. Hamı bizdə idi. Eyvanda zırpaket, fişəng yandırmışdıq. Həsənağa da əlində ulduz fişənglərdən yandırmışdı. Həmin gün bizim üçün çox maraqlı keçdi. Çünki demişdi ki, hər zaman bayramı ailələrinizlə qeyd edirsiniz. Biz dörd Naxçıvanlı isə ailələrimizlə qeyd edə bilmirik. Bu bayram bizi tək qoymayıb, bizimlə qeyd edin. Arzumuz gerçək oldu və hamımız birgə bayramı qeyd etdik.

Rəşadın Reks adlı iti vardı. O da bizimlə yaşayırdı. O, itini Həsənağa ilə Adəmin yatdığı otağın eyvanında saxlayırdı. Hər gün Həsənağa ilə Adəm itin qoxusundan yata bilmədikləri üçün Rəşadı danlayırdı. Reksi həftə sonları evdə olanda parka gəzməyə çıxarırdıq. O, hamımızdan çox Həsənağaya öyrəşmişdi.

Akademiyada da 7-ci və 5-ci bölüklərdə Həsənağa ilə bir yerdə olmuşuq. Bölmələr dəyişildikdən sonra Həsənağa qardaşımla bir bölükdə və bir tağımda təhsilimizi davam etdirdik. Həsənağa bizim tağım çavuşu idi. O olduğu müddətdə bizim tağımda birlik daha çox idi. Tağımda olan kursantlara həm dərslərində, həm də idmanda çox kömək edirdi. Komandirlərinin, müəllimlərinin yanında bacarığına və savadına görə çox hörməti vardı. Kursantların istər buaxılışında, istərsə də, digər işlərində Həsənağanın çox

böyük rolu vardı. Çünki komandirlər Həsənağanın xətrini o qədər çox istəyirdilər ki, Həsənağa hər hansı bir kursantın işindən ötrü komandirə yaxınlaşanda onlar bir dediyini iki etmirdilər. Həsənağa o qədər komandirlərin yanında etimadını doğrultmuşdu ki, həftə sonları o hansı bir tədbirlə bağlı akademiyada qalanda bayırdan yeməyə bir şeylər alırdı. Həmişə birgə oturub yeməyimizi yeyib, vaxtımızı birgə keçirirdik.

Həsənağa çox yaxşı dost, yoldaş, qardaş idi. Onun saymaqla bitməyən müsbət keyfiyyətləri vardı. O, gözəl və yadda qalan günləri arxada qoyub aramızdan tez bir zamanda ayrıldı. İstər hərbi xidmətdə, istərsə də bir evdə kirayədə yaşadığımız müddətdə özünü həmişə doğrultdu. Hələ də ağsaqqal deyərək o əzimli səsi ilə məni çağırmağı, o mənalı gülüşü gözümün önündən getmir. Həsənağa ilə keçirdiyimiz günlərdən bizə xatirə olaraq həm keşməkeşli günlər, həm də sadəcə onun necə də bacarıqlı və cəsur olmağı yaddaşımıza yazıldı.

Həmin hadisələrdə axırıncı dəfə zəng edəndə bir az da zarafatlaşdıq. Çox dedim: "Həsənağa, özünü qoru, zirehli gödəkcəni, kaskanı heç vaxt əynindən çıxartma". O isə dedi: "Qardaşım, alnımıza nə yazılıb, o da olacaq. Həsrətlə bu günü gözləyirdim. Onların başlarını əzə-əzə həmin yerlərə gedib oradan sənə zəng edib, şəkil göndərəcəyəm". Dedim: "Qardaşım, talışlığın tutmasın. Özünü qoru, sənin üçün də nigaranıq". Düz deyirmiş qardaşımız, alnımıza nə yazılıb, o da olacaq. Onun da alnına şəhid olmaq, qəhrəman olmaq yazılmışdı. Şakir əminin, Səmilə bibinin onun kimi mərd, cəsur, vətəninə sadiq bir oğul böyütdüyünü bütün dünya gördü.



# BAŞ LEYTENANT TURXAN ƏMİROV

(kursant yoldaşı)

Həsənağanı 2007-ci ilin avqust ayında Lənkərandan gəlmiş, ləhcə ilə danışan, səmimi bir oğlan kimi tanıdıq. Qısa zamanda öz liderlik keyfiyyəti, fərdi idarəçilik qabiliyyəti ilə fərqlənən Həsənağa bizim 1034-cü tağımın çavuşu oldu və biz onu tanımağa, kəşf etməyə başladıq. Tanıdıqca onun vücudunun içində şən, gülərüz, böyüklə-böyük, kiçiklə-kiçik, həyat eşqi ilə dolu olan bir ruhun olduğunu gördük. Bu hisslər, bu doğmalıq bizim aramızda bir dostluq toxumunu səpdi və biz artıq bir sevindik, bir kədərləndik, bir gəzdik, bir əyləndik.

2007-2010-cu illərdə liseyi bitirib, hərbi məktəbə gəldik. Cəmi bir il ayrı bölükdə olandan sonra eyni ixtisasa, eyni bölüyə, eyni tağıma düşdük ki, bir yerdə olaq. Burada o qədər maraqlı günlərimiz, xatirələrimiz var ki, bir ömürə sığmayacaq qədər...

Məktəbi bitirib zabit təkminləşdirmə kursunda da bir il bir yerdə xidmət etdikdən sonra ayrılıb, hər birimiz ayrı hərbi hissələrə getdik. Mütəmadi danışır, bir-birimiz tərəfə yolumuz düşdükdə görüşürdük. Sonuncu dəfə 2019-cu ilin sonunda yenə eyni vaxtda bölük komandiri kursunda olduq. Yenə bir yerdə bu bizim birlikdə keçirdiyimiz ən uzun və son günlərimiz olacağını heç vaxt xəyal belə edə bilməzdik. Vətən müharibəsi başlamamışdan bir neçə gün qabaq son danışığımız oldu. Yenə öz ampulasında olan Həsənağa pozitiv danışdı. Hər şeyin yaxşı olacağını, gözəl günlərin olacağını bildirdi. Qısa vaxt sonra mən həyatımın ən pis xəbərini, dost itkisi xəbərini aldım. Heç vaxt eşitmək, inanmaq, görmək,

yaşamaq, barışmaq istəmədiyim bir duyğu idi. Hər xırda ip ucunu araşdırdıq. Ona əlimin çatması, onun haqqında deyilənlərin yalan olması üçün çox cəhd göstərdim. Yaxın dostlarım Müşfiqlə, Asəflə birlikdə onun əbədi uyuduğu məzarın başında duranda utanc hissi keçirdim ki, biz səni qoruya bilmədik.

İndi Həsənağa ən uca zirvədədir. Hər birimiz onunla fəxr edirik. O, indi yanımızda olsa idi, Həsənağadan ağız dolusu danışıb, necə qürur duyduğumuzu üzünə deyərdik. Həsənağa həmişə mənim balaca qardaşım olaraq qalacaq. Əziz Həsənağa, səni tanıdığım 14 ildə hər dəfə deyib, amma heç vaxt gedə bilmədiyimiz evinə sənin xatirəni yad etmək üçün getmək qədər üzücü bir hiss olduğunu düşünmürəm.



## BAŞ LEYTENANT MUSTAFAYEV RAUF

(kursant yoldaşı)

Həsənağa haqqında nə desəm də, nə danışsam da azdır. Onunla biz bir-birimizi 2007-ci ildən hələ C.Naxçıvanski adına hərbi liseydə oxuyandan tanımağa başladıq. Həsənağa mənim olduğum 1034-cü tağımın komandiri idi. O elə kiçik yaşlarında çox gözəl, səmimi, şəxsi heyətini sevən gözəl idarəetmə bacarığına malik bir komandir idi. C.Naxşıvanski adına liseydə oxuduğumuz müddətdə bir-birimizi daha da yaxından tanıdıq. Dostluq, yoldaşlıq münasibətlərimiz daha da möhkəmləndi. Liseyi bitirdikdən sonra hərbi məktəbdə də bir kursda oxuduq. Başqa bölüklərdə olmağımıza baxmayaraq, onunla tez-tez görüşür, söhbət edirdik. Həmişəki kimi deyib-gülər, zarafatlarımızdan qalmazdıq. Həsənağa ilə son görüşümüz 2020-ci ilin fevralında oldu. İkimiz bir yerdə kursda idik. Kursdan sonra da biz bir-birimizlə əlaqə saxlayıb danışırdıq.

2-ci Qarabağ müharibəsi başlayanda öz hərbi hissəmlə mən də döyüşlərə qatıldım və həmən müddətdə bəzi səbəblərdən heç kimlə əlaqə saxlaya bilmədim. 10.11.2020 tarixində döyüşlər bitdikdən sonra Həsənağanın bütün zirvələrdən uca olan ali zirvəyə, şəhidlik zirvəsinə ucaldığını öz zabit yoldaşlarımdan eşitdim. Bu xəbər məni çox sarsıtdı. Həsənağa kimi gözəl qardaşı, gözəl silahdaşı itirmək çox çətin idi. O mənim üçün hələ də sağdır. Şəhidlər ölmür. Onlar bizim qəlbimizdə biz var olduqca daim yaşayacaqlar.

# KAPİTAN RÜSTƏMOV ADƏM

(kursant yoldaşı)

Biz ilk dəfə Həsənağa ilə 2010-cu ildə Azərbaycan Ali hərbi məktəbində bir kursda yoldaş olmuşuq. Onunla ayrı bölüklərdə olsaq da, Həsənağa ilə münasibətimiz yaxşı idi. Həmişə kursantların arasında bacarıqlı, sayılıb-seçilən biri kimi tanınıb. Daim idman yarışlarında, dərslərində, hərbi təlimlərdə müvəffəqiyyətli kursant olub.

Azərbaycan Ali hərbi məktəbini bitirdikdən sonra bir il Təlim-tədris mərkəzində zabit hazırlıq kursunda onunla birgə oxumuşam. Həsənağa ilə bu müddət ərzində və xidmətdə olduğumuz zamanda eyni evdə yaşamışıq.

Biz təlim-tədris mərkəzini bitirdikdən sonra Gədəbəydə "N" saylı hərbi hissəyə gəldik. Eyni taborda xidmət etdik. Ön xətdə də birlikdə idik. Xidmətimiz uzun müddət, yəni 2-3 il bir yerdə olub. Daim peşəkarlığı, mərdliyi, cəsurluğu ilə fərqlənən zabitlərdən olub.

Həsənağa ilə bağlı xatirələrim çoxdur. Bir dəfə Lənkəran şəhərində yoldaşımızın toyu olacaqdı. Həmin yoldaşımız müəyyən səbəblərə görə Azərbaycan Ali hərbi məktəbindən tərxis edilmişdi. Onunla hətta bir evdə yaşayırdıq. Onda Həsənağa ilə birlikdə onun toyuna getdik və ailələrində, əmisigildə olduq. Amma hərb sahəsində olduğumuza görə müəyyən səbəblərdən Həsənağanın öz toyunda iştirak edə bilmədim.

Həsənağanın şəhid olduğu xəbərini eşidəndə mən Gədəbəydə ön xətdə tağım komandiri vəzifəsində xidmət edirdim. Səhər idi. Kənddən Oktay adında biri mənə zəng etdi ki, Həsənağa şəhid olub. Bu acı xəbər hər birimizi çox



sarsıtdı. Hər şeyin başlanğıcında birlikdə olmuşuq: uzun müddət birgə oxumuşuq, birgə hərbi xidmət etmişik və indi isə həmin insan aramızda yoxdur. Bunun acısını izah etmək mümkünsüzdür. Belə bir şəxsiyyətlə xidmət etmək də, dost olmaq da bizim üçün şərəfdir.

# BAŞ LEYTENANT SƏFƏROV FÜZULİ

(hərbidən yoldaşı)

Mən şəhidimiz Abdullazadə Həsənağanın bölmə komandiri olduğu bölükdə şəxsi heyətlə iş üzrə müavini olmuşam. Bölməyə ilk getdiyimdə bölmə komandiri tərəfindən çox gözəl münasibətlə qarşılanmışam. O hər zaman mənə doğru istiqamətlər verirdi. Nəinki mənimlə, həm də bütün zabit yoldaşları ilə səmimi davranar, daim öz yoldaşlarına düzgün yol göstərərdi.

Şəhidimiz haqqında qəlbimdə sözlərim, yaddaşımda isə xatirələrim çoxdur. Günlərin bir günü bir əsgərimizin ad günü idi. Əsgərimiz ad gününü evində qeyd etmək istəyirdi. Döyüş tapşırığı ilə əlaqədar əsgərin məzuniyyətə buraxılmasında müəyyən məhdudiyyət yarandı. Bölük komandirimiz ona söz verdi ki, sənin ad gününü özüm qeyd edəcəyəm. O, həqiqətən də, sözünün üstündə duraraq əsgərimizə çox gözəl ad günü qeyd etdi.

Ümumiyyətlə, Həsənağa heç vaxt şəxsi heyəti ilə xidmətdən kənar rəsmi davranmazdı. Sanki bir komandir yox, bir dost, yoldaş, böyük qardaş kimi rəftar edərdi. Bütün əsgərlərin dərdləri ilə maraqlanar, kimin nəyə ehtiyacı olarsa, həm maddi, həm də mənəvi kömək etməyə çalışar, dar günlərində onların yanında olardı. O sanki bunu özünə borc bilirdi. Öz insani keyfiyyətləri, mərdliyi, cəsurluğu ilə o, yaddaşımdan əsla silinməyəcək.



# BAŞ LEYTENANT PAŞAYEV FUAD

(hərbidən yoldaşı)

2008-2011ci illərdə Heydər Əliyev adına Hərbi Liseydə oxumuşam. 2011-2015-ci illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində oxumuşam və 2015-ci ildə Gəncə şəhərində yerləşən "N" saylı hissədə xidmətə başlamışam. 2017-ci ilin yanvar ayında əmrim Gədəbəydə yerləşən "N" saylı hərbi hissəyə gəldim. Böyük sevinc hissi ilə oraya yollandım. Komandanlığa təqdim olunandan sonra İsalı kəndinə göndərdilər. İsalı kəndində bölük komandirimin leytenant Abdullazadə Həsənağa olduğunu bildirdilər və mən Həsənağanı görənə qədər onunla xidmət edən hərbi qulluqçular onun yaxşı komandirliyindən, yoldaşlığından söhbət edirdilər. Hava şəraiti soyuq və dumalı idi. Haradasa iki günə yaxın İsalı kəndində qaldıqdan sonra mənə xəbər gəldi ki, bəs bölük komandirin gəlib. Səni posduna təqdim etməyə aparacaq. Mən Həsənağanı görəndə onun haqqında deyilən xoş sözləri onda hiss etdim. Həsənağa özünə məxsus "Niva" markalı maşını ilə özünün rəhbərlik etdiyi bölüyün dayaq məntəqəsi olan Dumalı döyüş mövqeyinə məni apardı. Artıq Həsənağa o bölükdə çoxdan xidmət edirdi. Mənə də öz bildiklərindən, bacardıqlarından, posta görüləsi iş və xidmətdən olanları göstərdi və öyrətdi. 6 aya yaxın mən Həsənağa ilə bir bölükdə xidmət etdim. Çox gözəl insan, yoldaş, qardaş, ən əsas da komandir idi.

## QULİYEV İNQİLAB

(hərbidəki yoldaşı)

Baş leytenant Abdullazadə Həsənağa mənim bölük komandirim, sonra qərargah rəisim olub. O, bizə komandir yox, qardaş olub. Həsənağa məndən yaşca çox kiçik, amma rütbəsi bizdən çox böyük idi. Rütbəsi çox böyük olmasına baxmayaraq, o, həmişə böyük, kiçik yolu gözləyən biri idi. Həmişə mənə dayı deyərdi. Mən də həmişə onun hörmətini saxlayardım. Mən o insanda mənfi bir xüsusiyyət görməmişdim. Onunla bağlı çox xatirələrim olub. Mən onun tabeçiliyinə verilən gündən mənə qarşı münasibəti çox böyük oldu. Hər hansı bir çətinliyə düşəndə həmişə məni çağırardı. O, hər zaman evə və yaxud xidməti zərurətlə əlaqədar aşağı düşəndə nəsə alıb gətirərdi. Gələn kimi məni çağırardı: "Dayı, gəl". Otağında otururdıq.

Mən onun mənə qarşı münasibətini heç vaxt unutmaram. 2020-ci ilin Ramazan ayında mən oruc tuturdum. Hər gün iftar vaxtı məni yanına iftar etməyə çağırardı. Stolun üstünə birinci xurma qoyub, deyərdi: "Dayı, sən bizim hamımızın dayısısan, gəl iftarını aç". Həmişə kollektivdə deyərdi ki, bizim milli mentalitetimiz var. Böyüklərə hörmət etmək bizim borcumuzdur. Mən də öz-özümdə deyirdim, mənim komandirimi böyüdən valideyinlərin oğluna verdiyi tərbiyəyə heyranam.

2020-ci il may ayının üçü idi, məni yanına çağırdı ki, yerləşdiyimiz yerin yuxarısındakı bulağın yanında oturaq, yemək yeyək. Mən də "komandir, sizin sözünüz yerə düşüncə düşmənlərimizin boynu sınsın", - dedim. Bu söz ona o qədər xoş gəldi, elə gözəl güldü ki. Hələ də o gülüşü unuda bilmirəm. Çobanlardan quzu aldım. O, quzunu özü kəsib, soydu, sonra



ondan elə gözəl yemək, kabab bişirdi. Tabor komandirimizi də dəvət etdi və komandirə güle-gülə dedi ki, dayımız təşkil edib. Bunu da qeyd edim ki, tabor komandirimiz mayor Vəliyev Vüsal da çox gözəl insan idi.

Bizdə həmişə yaxında yaşayan yoldaşlar vardı. Evə gedib-gəlirdilər, amma mən Bakıda yaşadığım üçün evə gedə bilmirdim. Buna görə də məzuniyyətə həmişə məni birinci buraxardı. Bu gün mənim yaşamağımın səbəbkarı Baş leytenant Həsənağa ilə tabor komandirimiz Vəliyev Vüsaldı. Axırıncı döyüşə girəndə mən də təchizatımı, silahımı götürdüm. Mənə dedi: "Dayı, sən hara?" Dedim komandir siz hara, mən də ora. Hər ikisi mənə dedi, xeyr, bu dəfə sən getməyəcəksən. Çox dedim, axırda birinci dəfə idi ki, mənə dedi: "Əsgər, sənə əmr edirəm, get xidmət yerinə". Mənim vəzifəm maşının yanında tuşlayıcı idi. Bir də onun bir sözü yadımdan çıxmır, heç vaxt çıxmayacaq da. Döyüşlərin başlamasına az qalmış cənab Genaral Mayor Polad Həşimov bizim hərbi hissəyə gəlmişdi. Komandirlərlə düşmənlə təmas xəttinə ərazi ilə tanış olmağa getmişdi. Hərbi hissəyə çox yorğun gəldi. Bir az söhbət etdi, sonra dedi: "Bu hərbi hissə mənə ya Milli Qəhrəman, ya da Şəhid kimi fərəqət verəcək". Onun insani münasibətlərindən əvvəl xidmət etdiyi yerdə - Gədəbəydə də çox danışırdılar. Mən özüm Gədəbəydən olduğuma görə ora tez-tez gedirdim. Hətta mülki camaat ondan çox danışırdı. Həmişə kənd camaatının xeyir işlərinin başında Həsənağanın yeri başqa idi. Bu insandan nə qədər danışsaq qurtarmaz. Atası Şakir əminin dediyi kimi bunun nöqtəsi yoxdur, danışdıqca danışılır. Dəfələrlə elə gözəl yerdə mənim yuxuma girib, hətta mənə deyir: "Dayı, mən bu yeri arzulayırdım". Həsənağa şəhid olsa da, o bizim üçün yaşayır, həmişə də yaşayacaq.

## ƏSGƏR ŞƏRİFOV KƏNAN
(hərbidən yoldaşı)

2016-2017 ci illərdə Gədəbəydə əsgərlikdə olmuşam. İlk gəldiyim günlər Baş leytenant Abdullazadə Həsənağanı tanımırdım. Posta qalxdığım gün zəng gəldi və tabora göndərildim, yerimi dəyişdirmişdilər. O vaxtlar komandir hələ baş leytenant deyildi. Mənə də qohumun səni öz yanına aparır, deyirdilər. Kimi deyirlər, bilmirdim. Yeni göndərildiyim posta qalxdım. Komandir arada ziyarətə gəlirdi. O vaxt onun kim olduğunu tanıdım. Bozi adında da bir atı vardı. Onu çox istəyir, postları Bozi ilə gəzirdi. Bir müddət sonra 6-7 ayın əsgəri olardım ki, tağım komandiri olduğu posta gəldim. Əsgərlərlə rəftarı çox yaxşı idi. Heç vaxt əsgəri hansısa zabit, gizir, çavuşun yanında pis etmir, həmişə gözündə yüksək tuturdu. Hər kəslə çox mehriban idi. Heç kimin qəlbini qırmazdı. Məni də həmişə çağıranda "ayə, Şərifov" qışqırardı.

On ayın əsgəri idim, məzuniyyətə gəlirdim. Formanın ölçüsü bir az böyük olduğu üçün öz yığılma formasını mənə verdi. Tağım komandiri olduğu posta gəldiyim vaxtdan bir müddət sonra baş leytenant rütbəsi verildi və bölük komandiri vəzifəsinə təyin olundu. Postdan çıxıb bölük komandiri olan posta getdi.

Qış ayları idi. Gədəbəydə də qış uzun olurdu. 12-13 ayın əsgəri idim. Komandir öz yanına çağırdı. Postda bölük komandiri qarışıq 5-6 əsgər (tam say yadımda qalmayıb) talış idik. Komandirin gözündə bütün əsgərlər eyni idi. Ayrı seçkilik etmirdi. Komandir özünə qırmızı rəng "Niva" maşını alıb, atı unutmuşdu. Postları artıq "Niva" ilə gəzirdi.



Qış bitdi. Yaz ayları idi. Posta yoxlama gəldi. Talışların çox olduğunu görüb, bizi böldülər. Bizin hər birimizi ayrı postlara göndərdilər. Bəzən komandir posta gəlirdi. O gələndə hamı ilə zarafatlaşırdı. Onu sonuncu dəfə tərxis olanda gördüm. Hər tərxis olana deyirdi: "Görüşərik mülkidə". Amma əfsuslar olsun ki, görüşə bilmədik.

Düz deyiblər, yaxşı insanların ömrü az olur. Baş leytenant Abdullazadə Həsənağa çox yaxşı insan, qardaş idi. Əslində yazılası çox sözlər var, amma onları yazmağa sözlər kifayətsizdir...

## KƏRİMOV FƏRİD

(hərbidən yoldaşı)

25 sentyabr 2020-ci il bizi Göygöldəki hərbi hissələrin birinə yerləşdirdilər. Yenicə çatmışdıq ki, iki nəfər zabit sıranın qarşısına çıxdı. Biz hələ ki heç nədən xəbərsiz idik. Zabitlərdən biri həmin hərbi hissənin həmlə taborunun komandiri mayor Vüsal Vəliyev və qərərgah rəisi baş leytenant Həsənağa Abdullazadə idi. Şəxsi heyətə səsləndi ki, aranızda əsgərlik dönəmində kəşfiyyatda xidmət edənlər sıradan çıxsın. Sonra özləri seçim etməyə başladı. İstədiyi şəxsi heyyəti toplaya bilmədi, sonda Həsənağa dedi: "Könüllü olaraq üzərində təxmini 35-40 kq yüklə dağda, qayada yük daşıya bilmə və qorxmadan düşmən üzərinə gedə biləcək şəxs sıradan çıxsın". Mən və yeddi döyüş yoldaşım sıradan çıxdıq. Bizdən ad, soy ad, doğum yerini soruşdu. Hər birimiz də Qax rayonundan idik. Bu hərəkətimiz hər ikisinin, mayor Vüsal Vəliyev və baş leytenant Həsənağa Abdullazadənin çox xoşuna gəldi. Bilirsiniz necədir? Biz həmin insanlardan ruh yüksəkliyi, vətənə sevgi, bağlılığı və ən əsası düşmənə nifrət hissi gördük. Necə ola bilər ki, belə mərd insanlara biz qoşulmayaq? Və beləliklə, bizi öz şəxsi heyətinə götürdü. 26 sentyabr səhər saatlarından başlayaraq hazırlığımız oldu və dağlara mövqelərimizə qalxdıq. Bütün hazırlıqlar görülmüşdü. Səhər tezdən döyüş başladı, Həsənağa artıq dağ relyefində hücumda idi. Hər şey çox yaxşı idi. 27 sentyabr günorta saatlarında postdan o qürurla düşmənləri iti qovan kimi qovduq. Doğrudur, artıq şəhidlərimiz, yaralılarımız var idi. İki gün sonra mən və iki döyüş yoldaşım Əhmədli Vüsal Bayram oğlu və Həsənov Fərid İzzət oğlu dumanda yolu azdıq. Təhlükə olmasın deyə qayalıqda səhəri gözlədik. Səhər açılar-açılmaz gedib birləşmə mövqeyimizə çatdıq. Həmin an baş leytenant Həsənağa Abdullazadə öz döyüşkən əsgərlərinə bu sözləri deyirdi: "Biz 3 nəfər qalsaq belə bu döyüş davam edəcək, mən belə şəhid olsam bu torpaqlar azad edilməlidir. İllərdir bu günü gözləyirdik bu bir şansdır, düşüb ələ. Müharibə bitincə son damla qanımıza kimi vuruşmalıyıq" və elə də oldu, vuruşdu da!!! Ad qoydu o boz sıldırımlı dağlarda. Son gedişi unudulmaz oldu. Əsas qrup və ehtiyat qrup seçildi. Biz qeyri-peşəkar hərbçi olduğumuz və həmin döyüş peşəkar döyüşçü tələb etdiyi üçün bizi ehtiyat qrupa daxil etdi. Çox heyif, çox. Bunu hələ də özümüzə bağışlaya bilmirik. Səhər açıldı. Bir neçə post mundar erməni əsarətindən azad edildi. O qədər sevinirik ki, bir nəfər də olsun itkimiz olmadan iki post alınıb. Bu bilirsiniz, necə hissdir? Amma bu sevincimiz çox çəkmədi. Şəhid verməyə başladıq. Döyüşün gedişatını rabitə vasitələri ilə dinləyə bilirdik. Baş leytenant Həsənağa Abdullazadə haqqında eşitdiyimiz son söz: "Həsənağa da şəhid oldu. Vətən sağ olsun"! Və həmin an elə bil hər şey bir başqa oldu. Heç kəs belə bir xəbəri gözləmirdi.



Həsənağa bizim üçün çox ağır itki oldu. O elə bir ürəyə malik döyüşçü idi ki, gözündə qorxu hissi yox idi, ola da bilməzdi. Əsgərləri ilə sanki qardaş idi. Kobudluq yox, hər şeyi təmkinlə, söz ilə başa salan idi. Çox heyif qələbə sevincimizi yaşaya bilmədi. Şəhidlik zirvəsinə ucaldı. Həsənağa barəsində danışdıqlarımı sadəcə mənim bir neçə gündə gördüklərimdir. Onun əvvəldən tanıdığı əsgərləri həmişə danışanda rəhmət oxuyaraq yaxşı insan, gözəl zabit

olduğunu deyirdilər. Belə bir igid zabitimizdən nə qədər danışsaq azdır. O şəhid olsa da, bizim qəlbimizdə yaşayır. Şəhidlər ölmür. Onlar vətən uğrunda şəhadətə ucalır. Allah sənə rəhmət eləsin, şəhidim, komutanım!



## ABDULLAYEV SƏMƏD

(hərbidən yoldaşı)

Mən Abdullayev Səməd Telman oğlu 2020-ci ildə "N" saylı hərbi hissənin 4-cü taborunda hərbi xidmətdə olmuşam. Nə yaxşı ki orada olan qəhrəman komandir heyətini tanımaq mənə qismət olub. Düzdür, Vətən müharibəsi xalqımıza bir çox qəhrəmanları tanıtdı. Lakin bu qəhrəmanları daha əvvəldən tanımaq, onlarla bir yerdə xidmət etmək məni bir ayrı qürurlandırır. Müharibənin ilk günlərindən Murovdağ istiqamətində şiddətli döyüşlərin olması məni çox narahat edirdi. Çünki orada vuruşanlardan mənə əziz olan insanlar vardı. Onlardan biri də bölük komandirimiz Baş leytenant Abdullazadə Həsənağa idi. Əsil zabit ruhlu, digərlərinə örnək olacaq komandir idi. Bizim üçün komandir yox, qardaş kimi idi. Sərt xarakterli olsa da, əsgərlərlə ayrı-ayrılıqda çox mülayim davranardı. Müharibə ərəfəsində onun şəhid olması xəbərini eşidəndə sanki doğma qardaşımı itirmiş kimi pis oldum. Allah bizim igid komandirimizə qəni-qəni rəhmət eləsin. Onun kimi oğullar bir də çətin gələr bu dünyaya:

Taborumuzun şəhidlərinə,<br>
Bayraq olduz enmədiz!<br>
Şəhid olduz ölmədiz!<br>
Qarabağı aldız!<br>
Geri dönmədiz!

## KAPİTAN NƏSİROV CAVİDAN
(hərbidən yoldaşı)

Həsənağa çox yaxşı yoldaş, çox yaxşı qardaş idi. Onunla bağlı xatirələrim çoxdur. Bunlardan biri də onun ad günü idi. 2019-cu il idi. Həsənağanın ad günü idi. Toğanada Qurbanın kafesinə yığışdıq. Bəlkə də, yüz nəfərə yaxın adam olardı. Həmişə o kafedə yemək yeyib, pulun maaşda verərdik. Şərt də o idi ki, ad günü olan hesabın yarısını versin. Ad günü hədiyyəsi də Həsənağaya telefon almışdıq. Çünki əsəbləşib hər dəfə telefonunu yerə çırpırdı. Aldığımız telfonun da içinə yazıb qoymuşduq ki, əgər bu telefonu da sındırsan, səndən inciyəcəyik. Qonaqlıq başladı. Məclisdə məndən başqa hamı da içmişdi. Məclisin axırları idi, hamı tox ola-ola sifariş verir, Həsənağa da ofisianta gətir deyirdi. Mən də ayağa qalxıb hamını selfi etdim. Sonda hesabı eşidəndə dəli olmuşduq. 700 manata yaxın hesab gəlmişdi. Həsənağa da zarafatyana dedi ki, ad günümdə bu nə idi?

Həsənağa çox gözəl qardaş idi. Mən onu Toğanadan qabaq Gədəbəydə postdan tanımışam. Eyni taborda postda otururduq, bütün yoxlamalarda Həsənağanın postunu tərifləyirdilər.

Bir gün də təzə xəritələr verilib. Həsənağa dedi ki, qardaşım, mən çəkə bilmirəm. Bunu sən bir dəfə yoluna qoy. Halbuki özü də çəkə bilirdi. Mən də çəkməyə başladım. Həsənağa da yerinə uzanıb, "Hərcai" serialına baxmağa başladı. İki xəritə çəkdim. Yorğun olduğum vaxt Həsənağa serialı dayandırdı ki, qardaşım bunu belə çək, onu elə et. Dedim, ta qardaşlıqdan keçib, indi gəl, özün çək. Amma yenə şirin dili ilə razı salıb, mənə çəkdirdi.



Bir gün də Kəpəzin altında təlimə getmişdik. Təlimdən sonra quzu alıb, onu kəsdik. Gördüm ki, Həsənağa yoxdu. Tez quzuya baxdım, quyruq və içalat yox idi. Bildim ki, qardaşım haradasa əməliyyatdadır. Anidən gördüm ki, o yandan qayanın dibinə əsgər girib, çıxır. Tez getdim ora. Şompulla Həsənağa quyruğu kababa çəkib yeyirdi. Məni görən kimi zarafatyana şişi götürdü yedi ki, mən yeyə bilməyim. İş orası idi ki, quyruq bişməmişdi.

Həsənağadan nə qədər danışsam, az olar. Bu dünyaya onun kimi insan çox az gəlir.

# ORUCOV ORUC

(Həsənağanın yanında olan döyüş yoldaşı)

Bir dəfə hərbidən heç kəsi buraxmamışdılar. Hamı orada qalmışdı. Aralarında evə getmək istəyən ailəli MAHHXHQ-lər filan var idi. Komandirə milləti buraxmasını dedim. O isə getmək istəyirsənsə, özün get, camaatın ağzını pozma dedi. Mən subayam, qalım, amma ailəlilər var. Bizdə də ailəli tək Tural idi. Dedi ki, 10-cu bölük düzülsün. Hamı düzüldü. Hamınız gedin, özüm cavabdehəm dedi. 20 nəfərin 20-sini də buraxdı, yəni bir dəfə olmadı ki, problem yaratsın. Mənə deyirdi ki, get sabah saat 4-də gələrsən. Sabah bir də saat 3-də zəng edirdi ki, haradasan? Deyirdim ki, çıxmışam, qapının ağzındayam, gəlirəm. Deyirdi, sabah gələrsən. Bəzən deyirdim, komandir mənim yolum uzaqdır, məni burax. O da icazə verirdi. Bölük komandiri olmasına baxmayaraq, həmişə bizimlə dost kimi davranırdı.

26 sentyabr axşamı idi. O gün hərbi hissəyə gəldik. Bizi kamaza bölüşdürdü. Heç mən onda vaxt tapıb salamlaşa da bilmədim, çünki vəziyyət həmin vəziyyət deyildi. O vaxt Kəpəz dağının arxasına gəldik. Şəxsi heyətə dedim ki, (o vaxt mən onun tabeliyindən çıxmışdım, orada onun tabeçiliyində xidmət edən çavuşlar, gizirlər var idi) dedim ki, qərargah rəisinizə zəng edin ki, yağış yağır. Hər kəs islanır. Biri dedi ki, mənim konturum yoxdur, biri çəkindi eləmədi, nəysə götürdüm özüm zəng elədim. Öncə komandirə özümü təqdim edib, sonra ona problem dedim. Həsənağa isə cavabında "narahat olmayın, sizi qısa müddətdə oradan götürəcəm". Dediyi kimi də üstündən 1-2 saat keçəndən sonra birinci quru ərzaq payı gəldi. Şəxsi heyət ərzaq payını yedikdən



sonra onları Camış dağlarına qaldırdılar. Orada mənim tabeçiliyimdə 5 nəfər əsgər var idi. Komandirdən əsgərləri necə bölüşdürməyimi soruşdum. O isə dedi: "Oruc, ürəyin necə qaydada istəyirsə, elə də bölüşdür. (Mən də istehkamçı idim. İstehkamçıların üstündə manqa kamandiri idim) Hər kəsi 2-2 qrupa bölüşdürdüm. Bir nəfər də əsgər özümlə götürdüm. Döyüş başladı. Rabitədə hədsiz dərəcədə güclü bir idarəetməçilik var idi. Döyüş gedirdi. Həsənağa dedi ki, heç kəs heç bir yerə getməsin, bizim burada şəhidlərimiz var.

Elə həmin döyüşdə Həsənağa sol çiyni üstə uzanmışdı. O, şəhid olandan bir az qabaq dedi: "Kimdə su var? MAHHXHQ-nin biri suyu açdı, birinci suyu (başından içdi) özü içib, sonra suyu Həsənağaya atdı. Dedim: "Komandir, bir az da mənə saxla". Axırıncı suyunu içdi, elə bir neçə saniyə sonra artirelliya mərmisi düşməsi nəticəsində şəhid oldu.

## HACIYEV ZİYAD

(gizir)

Mən bölük komandirim olan baş leytenant Abdullazadə Həsənağa ilə 25.04.2017-ci ildə Gədəbəydə tanış olmuşam və onun tabeçiliyində xidmət etmişəm. Bunun üçün də çox böyük də şərəf duyuram.

Bizim komandir Həsənağa ilə çox gözəl günlərimiz olub. Bir gün onun yanına qonaqları gəlmişdi. Məni də ora çağırdı. Biz həmin gün çox gözəl zaman keçirdik. Deyib, gülüb, əyləndik. Deməyim odur ki, bunu heç bir bölük komandiri etmir. O, çox zarafatcıl adam idi. Hər dəfə postları gəzəndə də hamı ilə zarafat edirdi. Qış ayları gələndə meşələrə gedib odun yığıb, qışa tədarük görürdük. Mağazadan nəsə almaq istəyəndə heç bir şəxsi heyyətə pulu ödəməyə icazə verməzdi. Bir sözlə, Həsənağa bizə komandir yox, böyük qardaş olub. Bu gün onun yoxluğuna dözmək çox çətindir. Onunla olan günlərim yadıma düşəndə gözlərim dolur və ağlayıram. Həsənağanı itirməyimizə çox yanıram. Çox istəyərdim ki, indi də sağ olardı. Yenə də birgə zaman keçirərdik. Komandirim Həsənağa haqqında çox maraqlı şeylər danışaram, amma buna günlər, aylar sığışmaz...



## RÜSTƏMZADƏ XANLAR

(3-cü tağım 3-cü manqa komandiri, kiçik çavuş)

Qış ayları idi. Zəli gölündə (Təlim mərkəzi) gecə təlim atışında idik. Təlimimizi yekunlaşdırıb tabora qayıtdıq. Bölük komandirim baş leytenant Abdullazadə Həsənağadan icazə alıb, buraxılışa getdim. Sabah səhər 6-da tabora qayıtdıqda taborun şəxsi heyətinin üzlərini kədərli gördüm. Maraqlandıqdan sonra bildim ki, taborumuzun tibb məntəqəsinin feldşeri gizir Bünyadov Elman sübh vaxtı ürək tutmasından vəfat edib. Elmanın dəfnindən sonra Həsənağa və digər xidmət yoldaşlarımızla taborun heyətindəydik. Bir neçə dəqiqədən sonra Toğanalı taksi sürücüsü bizə yaxınlaşaraq Elmanın ona borcu olduğunu dedi. Taksi sürücüsünə Həsənağa sərt reaksiya verərək, borcun nə qədər olduğunu soruşdu və ardınca sabah gəlib məndən götürərsən dedi. Mən o an Həsənağaya diqqətlə baxıb xəyallara dalmışdım. Fikirləşirdim, Elman tibb məntəqəsinin feldşeri, biz motoatıcı bölük. Həsənağa ilə Elman arasında bir dostluq bağı da yoxdur. Bununla da Həsənağanın forma yoldaşına necə yüksək dəyər verdiyinin şahidi oldum. Həmin an Həsənağa ürəyimin dərinliklərinə qədər endi və mənim son nəfəsiməcən də orada qalacaq.

Günlərin bir günü də Həsənağaya yaxınlaşaraq bu gün qaravula dəyişdirici çıxa bilmədiyimi və yorğun olduğumu bildirdim. Çünki neçə ay idi ki, bir gündən bir dəyişdirici çıxırdım. Həsənağa ilə razılaşdıqdan sonra briqadada toplantıda iştirak etmək üçün Toğanalı kəndinə düşməli olduq. Kəndə düşəndən sonra bilmişəm ki, Həsənağanın mənim yerimə başqa birini təyin etməyi yadından çıxıb.

Sonra restoranların birində əyləşib yemək yedik. Yeməyimizi bitirdikdən sonra briqadaya getdik. Toplantıda iştirak etdikdən sonra mən Gəncəyə getməli oldum. Bizim də qaravul heyəti briqadaya gəlib. Bir rütbəli şəxs Həsənağanı yanına çağırtdıraraq dəyişdiricinin harada olduğunu və növbətçinin niyə gəlmədiyini soruşub. Həsənağa da öz ampluasında gülümsəyərək deyib: "Yetim" indi təyin edirəm. Rəis dərhal reaksiya verərək: "O nə sözdür, deyirsən". Həsənağa da yenə: "oldu, yetim, bir də deməərəm" demişdi.

Həsənağadan bir tək istəyim var, haqqını mənə halal etsin. Mənim və digər xidmət yoldaşlarımın üstündə çox haqqı və əziyyəti var. Həsənağa mən üçün daim yaşayıb və yaşayacaq. Şəhidlər ölmür...

Bu şeirimi də ona həsr edirəm:
Şəhidlik zirvəsi uca zirvədir,
Hər kəs o zirvəyə yetişə bilmir.
Quranda ayə var Şəhid barədə,
Hər zaman yaşayır Şəhidlər ölmür.
Sən elə zirvəyə yetişmisən ki,
O yerə insanı qeyrət aparır.
Qardaşım sənin ilə qürur duyuram
Sənə qeyrətlilər heyrət aparır.



## NƏBİYEV
(hərbidən yoldaşı)

Həsənağa bir il mənim bölük komandirim olub. Bu müddət ərzində etdiyimiz səhvlərimizi bir dəfə belə məruzə etməyib. Həmişə bizə yol göstərib, bizi döyüş üçün hazırlayıb. Bizə komandirlərimizi qorumaq vəzifə borcumuz olduğunu deyirdi, amma harada təhlükə olsa, özünü qabağa verirdi. Həmişə tabeçiliyində olanlara, "Siz mənim kiçik qardaşımsınız, sizi təhlükəyə ata bilmərəm", - deyirdi. Zəhmliyi, ciddiliyi nə qədər çox idisə, o qədər də təmiz ürəyi vardı. Həmişə etdiyi qəhrəmanlıqla və yoldaşlıqları ilə yadda qalaraq bizlərin sevimlisi olub.

Bir dəfə mən tabeçiliyində deyildim, başqa bir postun manqa komandiri işləyirdim. Postda olan güllələri atmışdım, xeyli əksiklik vardı. Birdən sabah yoxlama gələcək dedilər. Kimdən soruşdum, güllə yoxdur dedilər. Bir ortaq dostumuz Həsənağanı məsləhət gördü. Dedim o zabitdir, tanımıram, birdən məni məruzə edər. O isə gedib ona problemimi deməyi məsləhət gördü. Bir az getdim otağının qapısını döydüm. "Keç", - dedi. Özümü təqdim etdim, uzaq postdan gəldiyimi əsgərə çay gətizdirdi. Bir az söhbət etdik. Sonra problemimi, gülləmin əksik olduğunu, yoxlamadan çıxa bilməyəcəyimi dedim. Əsgərini çağırıb lazım olan gülləni verdi. Yoxlamanı yola saldım. 6 ay sonra məni onun tabeçiliyinə verdilər. "Yenə gülləni boş yerə atma", - dedi. Məni görən kimi tanımışdı. Sonra bölüyün baş çavuşundan öyrəndim ki, özündə də güllə əskik imiş. Sadəcə məni boş geri qaytarmayıb.

Biz nə etsək də, Həsənağaya olan borcumuzu geri qaytara bilmərik. O qədər yaxşılıqlar edib ki, insanın inanmağı gəlmir.

# QULUBƏYLİ MƏHƏMMƏD

(hərbidən yoldaşı)

Mən Həsənağa ilə üç il eyni tağımda oxumuşam. Həsənağa ilə olan gözəl anlarımızı gözəl günlərimizi saymaqla, deməklə bitməz. Birinci dəfə icazəsiz liseydən çölə çıxanda özümüz üçün yemək almağa çıxmışdıq. İkimiz də qorxa-qorxa gedirdik, amma gizli getməyimizə baxmayaraq tutulduq.

Bir gün buraxılış vaxtıdır. Hamı çölə çıxmaq üçün sıraya düzülüb, hazırlaşırıq. Həsənağa mənə yaxınlaşdı ki, Qulu təzə telefon almışam. Sənə kartımı verim. Mənim üçün evdə kompüterdən mahnı yükləyib gətirərsən. Dedim ki, ver, problem yoxdur. Buraxılışdan qayıtdıqda kartı ona verdim ki, buyur, yükləmişəm. Buraxılışdan da bir az tez qayıtmışdıq. Həsənağa telefona kartı taxdı, mahnını dinləməyə başladı. Otaqda da ikimiz idik. Oynamağa başladıq. Deyib gülə-gülə oynayırdıq, xəbərimiz olmayıb ki, bölük komandiri qapını açıb, bizə baxırmış. Sonra telefonu aldı, özümüzü də aparıb, otaqda yaxşıca əzişdirdi.

Həsənağa ilə çox gözəl anları danışaram, amma danışdıqda insan düşünür ki, Həsənağa indi yoxdur. Sadəcə ondan sənə o gözəl anlar, bir yerdə keçirdiyimiz yaxşı xatirələr qalıb.



# ƏSGƏR FƏRZƏLİYEV SƏNAN

(hərbidən yoldaşı)

2016-cı il mart ayının 20-si idi. Məzuniyyətdən qayıtmışdıq mənlə bir əsgər də var idi. Fərəcullayev Zöhrab aşağıda birqadada NBM-in (hərbi hissənin) qapısının yanında idik. O gün qar da yağırdı. Öz-özümüzə dedik ki, deyəsən, bu gün yuxarı qalxa bilmədik, burada qaldıq. Özümüz də yaxşı bilirdik ki, qar yağdısa, əlimizdə çantalar da varsa, yuxarı qalxmaq çətin olacaq. Bu barədə elə danışırdıq ki, birdən bir "Vita" yanımızda saxlıyıb soruşdu:

- Həsənağanın əsgərləri sizsiniz?

- Bəli, bizik. Bəs siz kimsiniz?

- Komandiriniz mənə zəng edib, sizi götürməyinizi dedi.

Bir anlıq sevindik ki, biz də bayramı postda olan əsgər yoldaşlarımızla birgə qeyd edə bilərik. Yolda komandir (Allah məqamını uca eləsin) sürücüyə də zəng edib ona dediyi ünvana qədər bizi gətirməyimizi, haqqı nədirsə özü aşağı düşəndə həll edəcəyəni telfonda açıq-aydın eşidirdim. Axşam saatları idi. Şınıxa təzə-təzə çatırdıq. Yolda perevalda qar o qədər yağdığına görə maşın yolu qalxa bilmirdi. Sürücü axırda komandirə zəng edib ki, bu maşınla daha buranı çox qalxmaq olmur, necə edim? Komandir də ona bizdən müğayat olmasını, bir azdan başqa bir maşınla gəlib o əsgərləri götürəcəklərini dedi. Çox keçmədi ki, ağ rəngli bir "Niva" gəlib bizi yoldan götürdü. Qar o qədər çox yağmışdı ki, artıq "Niva" da yolu gedə bilmirdi. "Niva"nın sürücüsü də bizi müəyyən məsafəyə qədər gətirdiyini, daha artıq gedə bilmədiyini zəng edib, komandirə dedi. Komandir isə cavabında dedi: "Eybi yox, onlar piyada yavaş-yavaş gəlsinlər.

Mən də qabaqlarına adam yollayacam". Maşından düşəndə istədik, pul verək sürücü əlimizi qaytardı ki, düşün, Həsənağa pulu verib. Düzü, bu saydıqlarım hər zabit əsgər arasında olmur. Amma Abdullazadə Həsənağa bizə komandir yox, qardaş olub. Söz xətrinə olsun deyil, sözün əsil mənasında qardaş.

Maşından düşüb posta tərəf irəliləyirdik ki, birdən uzaqdan bizə tərəf iki nəfərin gəldiyini gördük. Gələnlərdən biri, gizir biri isə komandirimiz Abdullazadə Həsənağa idi. O, hər zaman əsgərlərinin yanında idi.



## KAPİTAN HÜSEYNOV ŞƏHRİYAR

(hərbidən yoldaşı)

Mən 2016-2018-ci illərdə Gədəbəy rayonunun "N" saylı hərbi hissəsində hərbi qulluq etdiyim zaman Həsənağa ilə yaxından tanış oldum. Xidmət etdiyimiz bölmələr qonşu olduğundan, demək olar ki, hər günümüz, hər dəqiqəmiz birgə keçir, günü-gündən münasibətimiz daha da yaxınlaşırdı. Müəyyən müddətdən sonra Göygöl rayonunda da eyni hərbi hissədə qulluq etdik. Bu zaman dostluğumuz, yoldaşlığımız daha da möhkəmləndi.

Həsənağanın qərargah rəisi olaraq dolğun, dəqiq, operativ qərar vermək bacarığı vardı. O, qərargah rəisi olmağına baxmayaraq, əsgərlərlə birgə döyüşə atılırdı.

Həsənağa zabit kimi işinin peşəkarı, işini sevən, vətəninə bağlı insan, dost kimi arxalana biləcəyin bir qardaş idi. Onun haqqında söylənilən hər bir fikir tam səmimiyyətə uyğundur. Həsənağa ilə birlikdə Kəlbəcər istiqamətində vuruşduq. Yaralı olmağına baxmayaraq önə doğru irəliləyir, döyüşün gedişində müsbət nəticələr göstərirdi. Onun gözündə qorxu deyilən bir məfhum yox idi. Kəlbəcərin azad olunması uğrunda da kifayət qədər şücaət göstərdi. Və o bu yolda şəhid oldu. Onun şəhid xəbərini eşitmək çox ağır idi. Mən Həsənağanı hər zaman dostum kimi, qardaşım kimi çox istəmişəm.

# LEYTENANT İSLAMZADƏ ELMƏDDİN

(hərbidən yoldaşı)

Mən xidmətə təzə başlayanda çətinliklərim olurdu. Bir gün Həsənağa ilə sənədləri təqdim etmək üçün briqadaya getmişdik. Mənim sənədlərimdə xırda nöqsanlar var idi.

Həsənağa məndən soruşdu ki, sənədlərində çatışmayan nə var? Mən də məsələni izah etdim ki, anlayışım olmayan sənədlər var. Hansı ki bu sənədlər bölük komandiri səviyyəsində idi. Mən də tağım komandiri idim. Bölük komandirim də həmin vaxt məzuniyyətdə idi. Həsənağa yoxlanış zamanı bəzi sənədləri mənə verdi ki, bu sənədləri sən təqdim elə, gənc zabitsən. Sənə çox nöqsan olmasın. Qayıdanda mən sənə hamısını izah edərəm. Sonra biz öz taborumuza geri qayıdan günün səhəri məni öz otağına çağırdı. Sənədləri ən başdan mənə hər şeyi izah etdi.

Həsənağa elə bir insan idi ki, heç vaxt hərbi xidmətə həvəsi olanın həvəsinin azalmağına imkan vermirdi. Hər zaman kimə nə kömək lazım idisə, əlindən gələni edirdi ki, yaxşı hərbi qulluqçu kimi yetişsin. Azərbaycan xalqına, Azərbaycan ordusuna faydalı olsun. Elə bu xüsudiyyətlərinə görə döyüşdən əvvəl ona iki vəzifə verildi. Döyüş zamanı bizim taborun döyüşlərini özü idarə edirdi.

Həsənağanın mən də bir xatirəsi də var. Bizim zabit yoldaşlarımızdan bir nəfərə saat vermişdi. Həmin yoldaş da saatı mənə vermişdi. Bir gün saatı məndə görüb dedi ki, saat əsl sahibini tapıb.

Həsənağa bacarıqlı komandir, əsl silah yoldaşı, gözəl qardaşımız idi. Bəzən kiminsə haqqında danışmaq üçün sözlər, satirlər, kitablar bəs etmir. Bizim də Həsənağa üçün deyəcəyimiz sözləri yazsaq, neçə-neçə kitablar yazılar. Onun yoxluğuna hələ de alışmamışıq.



# QURBANOV HEYDƏR

(hərbidən yoldaşı)

Mənim hərbi xidmətim zamanı Abdullazadə Həsənağa leytenant rütbəsində idi. O, bizim posta gəldiyi gündən hamımızın sevgisini qazanmışdı. Abdullazadə Həsənağanın posta gəlməyi ilə çox şeylər dəyişdi. O, hər işdə bizimlə birgə olurdu, birlikdə odun gətirməyə gedir, köməkli şəkildə postu təmir edirdik. Gözəl günlərimiz 1 il boyunca çox olub. Hər gün birlikdə oturub yemək yeyəndə öz kursantlıq dövründə olan xoş günlərdən danışır, bizimlə deyib-gülüb, söhbət edir, günümüz xoş keçirdi. Hər maaş alanda pulun böyük bir hissəsinə ehtiyacımız olan hər bir şeyi alırdı. Biz çox vaxt hərbi yeməyi yemirdik. Qoyun kəsir, kabab bişirirdik...

Günlərin bir günü postda hamımızın siqareti qurtarmışdı. Aşağıdan düşüb aldırmaq olmurdu. Leytenant o zaman dedi: "Əgər mən bu postda siqaret çəkmirəmsə, bir kişinin oğlu burada siqaret çəkə bilməz". Hamımız o sözdən sonra bir müddət əziyyət çəksək də, siqaret çəkməyi tərgitdik. Bir müddət keçəndən sonra odun daşımağa gedəndə mənim ayağım sındı. Əvvəlcə sınıq olduğunu bilmədik. Sadəcə ağrılar olduğu üçün iki gün postda qaldım. Gecəni mənimlə birgə yatmadı, mənim üçün çox narahat idi. İki gündən sonra onun təkidi ilə aşağı düşdüm. O, "sənin burada qalmağın daha çox ziyandır, ciddi problem ola bilər" deyib, taksi çağırıb, məni aşağı saldı. Hospitalda olduğum vaxtlar nömrəsini əzbər bilirdim. Telefon tapdıqca zəng edib, hal-əhval soruşurdum. Mən qayıdandan sonra o artıq başqa posta göndərilmişdi və bölük komandiri vəzifəsini icra edəcəkdi. Məni də həmin posta gətirdi. Uzun müddətdən sonra qayıtmağım

münasibətilə qoyun kəsdi, birlikdə kabab bişirdik. Sonra komandir özünə qırmızı Niva almışdı. Havanın şaxtalı keçdiyi vaxtlarda maşın səhərlər çətin işə düşdüyü üçün itələyib işə salırdıq. Bir dəfə işə salmaq üçün uzun məsafə itələməli olduq. Mən onda dedim: «Komandir, maşallah qəşəng maşındır. Sürətli getməyi var». Başını pəncərədən çıxardıb: «sən mənimlə məzələnirsən?»-dedi. Dedim: «Komandir, siz bu maşın ilə harasa gedəndə bizi də aparın, çünki siz sürüb aparırsınız, biz itələyib gətiririk". Belə xoş zarafatımız olmuşdu... Mən tərxis olandan sonra da tez-tez danışırdıq. Hər bayramlarda, ad günündə zəng edib, təbrik edirdim. Amma heyif, ağlıma da gəlməzdi ki, onu belə tez itirək. Mənim müharibə zamanı yanımda yaralananlar, şəhid olanlar oldu, amma bu qədər məni yandıran olmamışdı...



# ƏSGƏR QULİYEV ETİBAR

(hərbidən yoldaşı)

Baş leytenant Həsənağa Abdullazadə ilə birgə maraqlı günlər yaşamışam. 2019-cu ilin 31 dekabr günü idi. Tərxis günümüzə sayılı günlər qalmışdı. Bu günlərdə əsgərə nə desən, nə eləsən ürəyi sıxılır, evə tez getmək üçün darıxır. Bölüyün əsgərləri içəridə bir-biri ilə söhbət edir, dədləşirdik. Bir də gördük ki, manqa komandirləri əli dolu bölüyün yataqxanasına daxil oldu. Bölüyə çatacaq qədər, hətta onda daha artıq şirniyyat, meyvələr, cürbəcür meyvə şirələri alınmışdı. Bir az sonra Abdullazadə Həsənağa gəldi və bizi təbrik edib, dedi ki, bunları sizin üçün almışıq, yəni bölüyün zabit, gizir, MAHHXHQ heyeti alıb. Nuş edin. Sonra növbətçi yenə düzülüş verdi, yeməyə getdik. Səhv etmirəmsə, komandir onda gördü ki, digər bölmələrin əsgərləri o qədər də sevincli deyil. Buna görə də o, bizə tapşırıq verdi ki, bölük üçün alınan hər şey taborun yeməkxanasında masaların üstünə düzülsün və taborun əsgərləri yeməkxanaya getsin. Elə də oldu. Bütün əsgərlər yedik, içdik, güldük, danışdıq, oynadıq. Hər birimiz çox sevincli, xoşbəxt idik. Onda gördüm ki, təkcə əsgərə komanda vermək deyil, həm də onu sevməyi, qorumağı hər bir komandir bacarmır. Amma bunu bizim komandir bacarırdı. Onda artıq tərxis olamaq da unudulmuşdu.

Abdullazadə Həsənağa hər zaman bizə komandir kimi komandir, qardaş kimi də qardaş olub.

## ZAHİDOĞLU TEYMUR

("Bu dünyanın Həsənağası"

sənədli filminin ssenari müəllifi və rejissoru).

Üzünü görmədən qazandığım dost... Baş leytenant Həsənağa Abdullazadə.... Bu ad iki ay içərisində yaddaşımda, düşüncələrimdə, qulaqlarımda, dilimdə bəlkə də min dəfədən çox səslənib. Onun barəsində xatirə filmi hazırlamağa başlayandan film təhvil veriləna qədər gördüyümüz, görüşdüyümüz adamların hamısı bu gənc oğlan haqda danışanda fikirlərini, hisslərini, sevgilərini o qədər səmimi şəkildə ifadə edirdi ki, mən öz ətrafımda, varlığımda, düşüncələrimdə özümə məlum olmayan nurlu duyğuların dolaşdığını açıq-aydın hiss edirdim...

İlk səfərimiz Lənkəran şəhərindən başladı. Həsənağanın doğulub boya-başa çatdığı şəhərə çatana qədər barəsində o qədər də informasiyaya malik olmadığım bu gənc zabit haqqında filmi necə hazırlayacağımı götür-qoy edirdim.

İlk müsahibimiz Həsənağanın orta məktəbdə müəllimi olan Məsumə xanım Məmmədova idi... Şagirdi barəsində söhbətə başlayanda səsinin tonu elə dəyişdi ki, sanki bir taboru idarə edən zabit haqda deyil, balaca bir uşaq haqqında danışırdı... Hər sözünün, hər fikrinin ahəngində səssiz axan çay kimi sonsuz bir sevgi balaca vaxtı dərs dediyi Həsənağanın xatirələrini çulğayırdı...

Başqa bir müəllimi – Pərvanə xanım Kərimova da sevimli şagirdi haqqında eyni tərzdə, eyni ahəngdə bölüşürdü fikirlərini. Pərvanə müəllim Həsənağanın sinif rəbəri olub. Hər iki pedaqoqun öz şagirdlərini təqdim etməsi Həsənağa Abdullazadəni heç vaxt görməyən, onu tanımayan məndə elə



təəssürat yaradırdı ki, elə bil, orta məktəbi mən Həsənağa Abdullazadə ilə bir sinifdə oxumuşam...

Təhsilini başa vurmasından illər ötməsinə baxmayaraq, öz müəllimlərinin yaddaşında bu qədər nurlu iz buraxmaq, yəqin ki, hər şagirdin bacara biləcəyi bir iş deyil...

Sinif yoldaşları, dostları heç vaxt üz-üzə gəlmədiyim, səsini eşitmədiyim, necə biri olduğunu bilmədiyim bu gənc zabiti özləri hiss etmədən belə mənə əməllicə sevdirirdilər.

Növbəti müsahibim Həsənağanın sevib-seçdiyi, ömrünü-gününü etibar etdiyi xanım -- Mirvari Abdullazadə idi. Ömür-gün yoldaşının həm də xalası qızıdır Mirvari xanım. Müsahibə boyu hər xatirədən-xatirəyə keçiddə üz cizgiləri, gözlərini ifadələri, səsinin tonu dəyişir. Həsənağa barədə danışdıqca gah təbəssüm dolu uşaqlıq ifadəsi, gah kədər dolu bir qadın iztirabı, gah hıçqırmaqdan özünü güclə saxlamağa, çəkdiyi əziyyətin ağırlığı, gah da ki, sevdiyinin bir daha geri gəlməyəcəyini tez-tez xatırlamağın varlığında yaratdığı təlatümlərin ağrıları dolaşırdı üzündə...

Çox çətin bir sualımıza reaksiyası gözlərim önündən çəkilmir: "Həsənağa sağ olsa idi, yenə Vətən dar gündə onu çağırsa idi, müharibəyə getməsinə imkan verərdiniz?" Bir anlıq dondu... "Yox... Yox, qoymazdım getsin", - dedi... Amma onun sevib-seçdiyi Həsənağanın heç nəyə baxmadan döyüşə gedəcəyini xatırlayıb astadan səsləndi: "Onsuz da, o, vətəni bizim hamımızdan çox sevdi... Atasından da, anasından da, məndən də... Heç kim onu saxlaya bilməzdi..."

Filmin çəkilişləri boyu Həsənağının əsgəri olmuş, onunla birgə xidmət keçmiş dostları, hərbi məktəbdə birgə oxuduğu kursant və hərbi xidmətdə bir yerdə olduğu zabit yoldaşları

ilə həm söhbət olduq. Bütün həmsöhbətlərimizin danışdığı xatirələr boyu hamısının üzündə bir-birinin tam oxşarı olan nurlu bir ifadə yaranırdı. Çox gənc olmasına rəğmən, bu qədər insanın sonsuz sevgisini qazana bilən bir adamın işıqlı xatirələrinin fonunda müharibənin məşəqqətli günləri gözümün önündən keçir. Qələbənin qazanılmasından ötrü, Vətənin işğaldan azad edilməsi yolunda öz canını fəda edən minlərlə döyüşçünün hamısı haqqında Həsənağanın barəsində danışılanlar kimi söhbət açılır...

Bir şəhid ömrünün qısa olmasına rəğmən, bu qədər nurlu, ilahi bir sevgidən ibarət olmasının fəlsəfəsi adamın düşüncələrini çox dərinliklərə çəkib aparır. Tanrı dərgahında bir şəhidin məqamının uca tutulmasının səbəbi insanın ifadə etməyə gücü çatmayacaq bir şəkildə fikirlərdə aydınlaşır...

"Bu dünyanın Həsənağası" sənədli xatirə filminin müəllifi olaraq təxminən iki ay müddətində onu əks etdirən görüntülərlə, fotoşəkillərlə, barəsində danışılan xatirələrlə, demək olar ki, hər gün həmsöhbət oldum... Hər gün işlədiyim videogörüntülərdə, fotoşəkillərdə, doğmalarının, dostlarının, onu tanıyanların müsahibələrində xəyali olaraq Həsənağa ilə yoldaşlıq elədim...

Film tamamlananda mən onunla sözün əsil mənasında dostlaşmışdım. Başqa bir filmin hazırlanmasına başladığım gün qəribə bir duyğu məni bürüdü... Həsənağa üçün darıxdığımı bütün varlığımla hiss edirdim. Bu gənc zabitin nurlu simasını əks etdirən fotolardan, videogörüntülərdən hər gün aldığım işıqlı enerjiyə bu qədər öyrəşəcəyimi ağlıma da gətirə bilməzdim. Növbəti filmin hazırlığında tək olduğumu duydum. Həsənağa bu filmdə yanımda deyildi



deyə görəcəyim işlər çətin gəlməyə başladı mənə, amma yenə də köməyimə çatırdı haqqında eşitdiyim xatirələrlə...

Heç vaxt görmədiyim, səsini eşitmədiyim, yol yoldaşı olmadığım bir adama, gənc bir baş leytenanta varlığımda yaranan sevgi, onun adı çəkilməyən başqa bir filmin görüləcək işlərində də ən yaxın köməkçim oldu... Mən üzünü heç vaxt görməyəcəyim, səsini eşitməyəcəyim, can deyib-can eşitməyəcəyim bir dost qazanmışdım: İşıqlı xatirələrdə ehtiramını, etibarını, vüqarını heç vaxt itirməyəcək dost-baş leytenant Həsənağa Abdullazadə...

## LALƏ HÜSEYNOVA

(jurnalist)

İkinci Qarabağ müharibəsinin hər günü, hər anı qəhrəmanlıq salnamələri ilə zəngindir. Hər anında Azərbaycan oğullarının, igidlərinin, Vətən sevdalılarının yazdıqları qəhrəmanlıq səhifələri var... Bu səhifələr ümumilikdə ədəbiyyat tariximizdə yeni qəhrəmanlıq dastanlarıdır. Bəli, 44 gündə Azərbaycan oğulları elə dastanlar yazdılar ki, yüz illiklər, qərinələr keçəcək, amma hər zaman onlar haqqında danışılacaq, yazılacaq. Bu mövzu heç zaman bitməyəcək.

Şəhidliyi ilə qəhrəmanlıq dastanı yazan Vətən sevdalılarından biri də Murovdağ döyüşlərində yüksək peşəkarlığı, bacarığı ilə adı tarixə əbədi həkk olunan baş leytenant Həsənağa Abdullazadədir.

Qəhrəmanlıq bir anda olur, amma neçə əsr, neçə qərinə danışılır. Qəhrəmanlıq milli-mənəvi bağlılıqdan, mənəviyyat zənginliyindən xəbər verir. Həsənağa da milli-mənəvi dəyərlərimizi, Vətən, torpaq heysiyyatını hər şeydən üstün tuturdu. Bu bağlılığı əməli ilə, fəaliyyəti ilə göstərirdi. O, Vətən müharibəsində də hərbçi şərəfinin ucalığıyla döyüşdü...

Peşəkar idi baş leytenant Həsənağa Abdullazadə. Vətənimizin ərazi bütövlüyünün təmin olunması naminə döyüşlərin başlanacağı günü və bununla bağlı Ali Baş Komandanın əmrini səbirsizliklə gözləmişdi. Təlimlərdə göstərdiyi yüksək peşəkarlığı, liderlik bacarığı ilə komandanlığın hər zaman diqqətini çəkmişdi. Xidməti fəaliyyətinin bütün dövrlərində nizam-intizamı, peşəsinə sonsuz sevgisi, vətənpərvərliyi ilə fərqlənirdi baş leytenant Həsənağa Abdullazadə.



Ötən il sentyabrın 27-də Ali Baş Komandanın döyüş əmri ilə Azərbaycan Ordusunun düşmənin təxribatlarına qarşı başladığı əks-hücum əməliyyatı zamanı igid zabit Həsənağa Abdullazadə xidmət etdiyi hərbi hissə komandanlığının tapşırıqlarını yüksək peşəkarlıqla yerinə yetirdi. Tabeliyindəki şəxsi heyətlə düşmən qüvvələrinə endirdiyi sarsıdıcı zərbələr nəticəsində Kəlbəcər, Ağdərə istiqamətində ərazilərimizin işğaldan azad edilməsində fədakarlıq nümunələri göstərərək şəhid oldu.

Həsənağa Abdullazadə çətin dağ şəraitində, çətin coğrafi mövqeyə malik olan relyeflərdə Vətənin keşiyində əzmlə dayanıb. Qəzetimizin 2019-cu il 23 dekabr tarixli sayında Həsənağanın xidmət etdiyi döyüş mövqeyindən reportaj dərc olunmuşdu. O, təbiətin sərt sınaqları qarşısında da mərdliklə dayanaraq qarla örtülmüş dağ aşırımında yerləşən döyüş mövqeyində xidmət edirdi. Şəkildə Həsənağa qarlı havada tabeçiliyində olan əsgərlərlə birlikdə döyüş mövqeyində - səngərdə irəliləyir. Gənc zabit Həsənağa Abdullazadə şəxsi heyətin hazırlığından danışaraq bildirmişdi ki, xidmətimizi elə qururuq ki, şəxsi heyətin döyüş vərdişləri daim inkişaf etsin. "Əsgərlərimiz mövzuları dərindən mənimsəyir, əvvəl keçirilən dərsləri mütəmadi olaraq təkrarlayırlar. Hər birimiz yaxşı bilirik ki, yüksək döyüş hazırlığı düşmən üzərində qələbəmizi təmin edəcək amillərdəndir".

Baş leytenant Həsənağa Abdullazadə Vətənə, torpağa, orduya xidmətini əsil peşəkarlıqla həyata keçirib.

Baş leytenant Həsənağa Abdullazadə canını torpaqlarımızın azadlığı və bütövlüyü uğrunda fəda etməklə, Vətənə əsil oğul, gələcək nəsillərə gözəl örnək olmağın nümunəsini

göstərdi. Elinə, obasına uca şəhid adı ilə "döndü". Həsənağa döyüşdü, əsil hərbçi kimi vuruşdu, qəhrəmanlıqlar göstərdi, canından artıq sevdiyi Vətən torpaqlarının müdafiəsində əzmlə dayandı. Həsənağa da fəxrimiz, qürurumuz, and yerimizdir bütün şəhidlərimiz kimi. Vətən, torpaq yolunda canından keçən insanların fəth etdiyi ən yüksək şərəfli zirvədir şəhidlik... Qərinələr, əsrlər keçəcək, şəhidlərimiz əsla unudulmayacaq... Xalqımız Vətən üçün doğulan şəhid oğlunu da, qoynunda əbədi qoruyacaq, onun qəhrəmanlığını gələcək nəsillərin yaddaşına köçürəcək.



# ABDULLAZADƏ HƏSƏNAĞANIN
# ƏZİZ XATİRƏSİNƏ
# HƏSR OLUNMUŞ ŞEİRLƏR

**HƏSƏNAĞA İMZASI VAR.**

Ulu vətən sevgisiylə
Hərb yolunu özü seçdi.
Yaşadığı ömrü, günü,
Hünər köynəyindən keçdi.

Boyuna çox yaraşırdı
Əynində zabit mindəri.
Gələcəyin generalı,
Ordunun gənc komandiri.

Gedirdi düşmən üstünə
Güllə, mərmi yağışında.
Qisas odu parlayırdı
Onun qartal baxışında.

Qanlı döyüş meydanında
Yağılara qənim oldu.
Hünərini duyanların
Sevincindən gözü doldu.

Qeyrəti geyib əyninə
Qələbəyə yol gedirdi.
Ölümü öldürən oğul,
Uca məqam, uca pirdi.

Yurd uğrunda döyüşlərdə
Açdı möhkəm qollarını
Qucaqladı məhəbbətlə
Şəhadətin yollarını.



Qaldı cavan arzuları
Xonça-xonça, sini-sini.
O qanıyla yurd yerinə
Yazdı vətən sevgisini.

Döyüşlərdə sərt, amansız
Həyatda çox kövrək idi.
Ömrü günü başdan başa
Şirin arzu dilək idi.

Anasının laylaları
İndi boynu bükük qalıb.
Arxasınca baxanların,
Kövrək qəlbi sökük qalıb.

Yaşadığı zabit ömrü,
Min ömürə sığışmazdı.
Qanlı döyüş meydanında
Hünəriylə dastan yazdı.

Şəhid-şəhid ətirlənib
Qarabağa gedən yollar.
Şanlı zəfər kitabında
Həsənağa imzası var.

(Yasəmən Qəyyumlu)

## ŞƏHİDİMƏ YAXŞI BAX

Ana torpaq, şəhidin var, şəhidimə yaxşı bax.
Elə bərk qucaqla ki, ona soyuq dəyməsin.
Yorğanını asta ört şəhidimin üstünə
Axı yaralıdır o, yarası incitməsin.

O, atanın, ananın yeganə övladıydı.
Abdullayev nəslinin damağında dadıydı,
Həsənağa, Həsənağa igidimin adıydı.
Qurban olum, şəhidimə yaxşı bax.

Bir atanın beli orda bükülmüş,
Bir ana başına qara bağlamış,
Bir yarın arzusu yarımçıq qalmış,
Qurban olum, şəhidimə yaxşı bax.

Gecələr gözümə yuxu getməyir,
Ana ah-naləsi niyə bitməyir?
Bu qədər şəhidin sənə yetməyir?
Qurban olum, şəhidimə yaxşı bax,

Lənətə gələsən, abırsız düşmən!
Öz başına dəydi atdığın güllə.
Yurdumda hər daim bitər gül-çəmən.
Qurban olum, şəhidimə yaxşı bax.

(Xanım Miriyeva)



## CƏNNƏTƏ APARAN İZLƏR

Cənubda tufanlar qopur bu gecə,
Çün həyat bir igidi bizdən alıbdır.
Dözülməz dərdlərə biz dözək necə?
Bir ananın gözləri yaşlı qalıbdır.

Bu dünya igidlə bir karvan qurub,
Ədalətin yoluna salıb apardı.
Bir də Həsənağa kimi gözəl qardaşı
Bizim əlimizdən alıb apardı.

Cənab baş leytenant, bizim ürəyimizdə
Daima silinməz qalacaq adın.
Sənin şəhadətin böyük məqamdı,
Bizlərə baş ucalığı olacaq adın.

Zənn etmə, sənin anan tək, tənha qaldı,
Fəxr etsin sənintək oğul yetirdi.
İlahi bir oğlunu əlindən aldı.
Bizləri o anaya oğultək verdi.

Həsənağa, məzarın nura boyandı.
Sən İmam Hüseynin qiyamındasan.
O yatan ruhun da indi oyandı.
Sən artıq şəhidlər məqamındasan!

(Mirəli Maştağa)

******

Bağlıydın vətənə, bağlıydın elə,

Sən, ey tariximin şanlı varağı.
Sənə şirin olan canından belə
Daha şirin oldu vətən torpağı.

Arzun torpaqların azadlığıydı,
Xəyalın şəhidlik həvəsindəydi,
Yüksək rütbələrə ucalan zaman
Ruhun şəhidliyin zirvəsindəydi.

Tabor komandiri, səngər əsgəri,
Ən ali hədəfi almısan nişan.
Fəxri fərmanların, medallarındır
Keçdiyin yollardan bizə danışan.

Döyüş rəşadətin dillər əzbəri,
Vətən məhəbbəti axan qanında
Cansız cismindən də qorxurdu düşmən,
Çünki Allah eşqi vardı canında.

Vətəndən güc almış biləklərinlə
Aldın neçə-neçə düşmənin canın.
İgid evladısan talış xalqının,
Milli Qəhrəmanı Azərbaycanın!

Hüseyn karvanına qoşulub getdin,
Allah dərgahında ruhun azadə,
Ruhun qarşısında baş əyirik biz,
Şəhid Həsənağa Abdullazadə.
(Tofiq Həsənli)



## ŞƏHİD HƏSƏNAĞA

Necə vəsf eləyim səni, ay bala?
Tərifin sığmır ki, bu gen cahana.
Mükəmməl xəlq etdi səni Xudayar,
Səmilə balası, ay Həsənağa.

Bir nəslin istəkli balası idin,
Bir evin yeganə çırası idin,
Günəştək nur saçdın bütün cahana
Gözlər qamaşdırdın, ay Həsənağa.

Üzərində nuru var uca Allahın,
Gözündə dərdi var qoca dünyanın,
Qəlbində kök salan Vətən sevdanın,
Mən olum qurbanın, ay Həsənağa.

Ədəbin, ərkanın hər kəsə bəlli,
Sənin ömür qalan, qeyrət təməlli,
Axı nə söyləyim, olsun təsəlli?
Canım sənə fəda, ay Həsənağa.

Anan nur simalı, qeyrətli qadın.
Atan şir ürəkli daşıyır adın
Yayıldı vətənə sənin ad-sanın.
Adına heyranam, ay Həsənağa.

Tanrının anana əmanətiydin.
Sən göydən gəlmişdin, göylər əhliydin,
Elə yaranmışdan cənnət əhliydin.
Cənnətinə qurban, ay Həsənağa.

(Xatirə Həsənli)

# ABDULLAZADƏ HƏSƏNAĞANIN **XATİRƏ ŞƏKİLLƏRİ**



*(Lənkəran şəh. 4 yaş)*



*(Sağdakı Həsənağa, solunda qucaqda olan uşaq isə həyat yoldaşıdır. O zaman Həsənağanın 5 yaşı, yoldaşı isə 1 yaş bir neçə aylıq idi.)*



*(Həsənağa 9 yaşında)*





*(Dostları ilə birlikdə)*



*(Dostunun toyunda*



*(Nişanlı olduğu zamanlar həyat yoldaşı ilə)*







*(Toy günü)*











*(Gəncə şəhəri, 2019-cu il)*
*(Gədəbəydə işlədiyi vaxtlar hərbidə)*



*(Göygöl şəhərində, arxasında Kəpəz dağı)*





*(Bakıda 2019-cu il yanvar ayı,*
*Həsənağa kursa göndərilən vaxt)*



*(Göygöl. Yanında sağda əyləşən şəhid mayor*
*Vüsal Vəliyevdir.)*



*(Göygöl şəhəri)*





*(Həsənağanın C.Naxçvaniski adına*

*hərbi liseydə oxuduğu vaxtlar)*





*(Həsənağanın otağında)*



*(Göygöl)*



*(Göygöl. 2019-cu il yanvar ayı, Həsənağanın arxasındakı şəhid Kazımov Xuduş Həsənağanın MAHHXHQ.)*



*(Yaxın dostu baş leytenant Məmmədzadə Mikayıl ilə)*



*(Gədəbəydə komandiri Vəfalı ilə)*





*(Komandiri Vəfalı və Həsənağa. Ağ at Həsənağanın öz atı idi)*





*(Gədəbaydə əsgəri ilə)*





*(Göygöldə işlədiyi vaxtlar)*









*(Göygöl)*





*(Göygöl, Toğana. MAHHXHQ Oruc ilə)*







*(Göygöl. MAHHXHQ Anar ilə)*



(Gədəbəy. Qurban bayramında)





(Müharibədən bir neçə ay əvvəl)



(Müharibədən bir neçə ay əvvəl, Göygöl.)



(Müharibə vaxtı)


Şəhid
Həsənağa Abdullazadə